Xalqın qəzeti!

# Xalq qəzeti

№ 180 (30584) 23 avqust 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

“Xalq qəzeti” Azərbaycanın 105 illik tarixi salnaməsidir




Səhifə ⇨ 9

# Azərbaycan–Özbəkistan: tarixi ortaqlıq üzərində ucalan strateji tərəfdaşlıq

## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri

### Daşkənd Beynəlxalq Hava Limanında qarşılanma




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də Özbəkistan Respublikasına dövlət səfərinə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İslam Kərimov adına Daşkənd Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşıladılar.

### Ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiram



**Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Daşkənddəki Heydər Əliyev Meydanında Ümummilli Liderin barelyefi önünə gül dəstələri qoyublar.**




Daşkəndin Mirabad rayonunda yaradılan Heydər Əliyev Meydanının və Ulu öndərin burada ucaldılmış barelyefinin 2022-ci il iyunun 21-də açılışı olub. Ərazisi tamamilə yenidən qurulan meydanda yaşıllıq salınıb, sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb.

Həmin il Özbəkistanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Ulu öndərin barelyefinin açılışında iştirak ediblər.



## Azərbaycan–Rusiya–Ermənistan: daşlar yerinə necə oturur?

### Lavrovun sabotaj məntiqi və Zaxarovanın “sandıq”dan çıxardıqları

**Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Azərbaycan–Ermənistan münasibətləri xüsusunda rəsmi İrəvana yönəlik ittihamı geniş müzakirə doğurub. Daha dəqiq desək, söhbət Lavrovun sabotaj məntiqindən gedir. O, Prezident Vladimir Putinin Bakıya səfəri əsnasında ölkəsinin “Birinci kanalı”na müsahibəsində Ermənistanı regional kommunikasiyaların açılmasına maneçilik törətməkdə ittiham etmişdi. Belə bir ittihamdan sonra İrəvan və Moskva arasında söz davasının güclənəcəyi gözlənirdi və belə də oldu.**

Əvvəlcə, Ermənistanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ani Badalyan işə düşdü. Badalyanın nələrdən söz açdığına diqqət yetirəcəyik. Ancaq əvvəlcə onu bildirək ki, dolayısı ilə Badalyana cavab olmasa da, ümumən sabotaj məntiqi xüsusunda növbəti açıqlamanı Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova səsləndirib. O, Ermənistan–Azərbaycan sərhədindəki vəziyyəti və İrəvanla Bakı arasında aparılan danışıqlar prosesini şərh edərkən konkret detalları açıqlayıb. Necə deyərlər, açıb sandığı töküb pambığı. Elə isə diqqət yetirək və görək sabotaj nə imiş.

*(ardı 3-cü səhifədə)*

## Ukraynada anti-Azərbaycan “sindromu” – məyusuq, amma gözləntimiz var

**Hər şey Rusiya Prezidenti Vladimir Putinin ölkəmizə səfərindən başladı. Hərçənd, buna qədər də müəyyən “atəş səsləri” eşidilirdi. Söhbət Ukrayna mediası və sosial şəbəkə seqmentindəki anti-Azərbaycan ritorikasından gedir. İstər-istəməz, düşünürsən: Azərbaycan Ukraynaya münasibətdə hansı yanlış addım atıb ki, tənələrlə üzləşir? Əlbəttə, buna tənə də demək olmaz. Çünki bütün əndazələr aşılır.**



*(ardı 3-cü səhifədə)*

## Oskanyan keçmişdə ilişib qalıb

**Gələn ay birinci ildönümünü qeyd edəcəyimiz lokal xarakterli antiterror tədbirlərinin bir mühüm nəticəsi ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin tam bərpası, digəri isə işğal olunmuş ərazilərimizdə 32 il (1991-2023) mövcud olmuş qondarma “dağlıq qarabağ respublikası”nın tarixin arxivinə gömülməsi idi. Separatçı rejimin sonuncu “qlavar”ı Samvel Şahramanyan antiterror tədbirlərinin başa çatmasından beş gün sonra – sentyabrın 28-də qondarma qurumun mövcudluğuna xitam verilməsi haqqında fərman imzaladı. Qarabağın erməni əhalisini, faktiki olaraq girovluqda saxlayan xunta rejiminin göstərişi ilə insanlar elə həmin günlərdə bölgəni tərk edərək Ermənistana köç etdilər.**



Buna baxmayaraq, rejimin süqutunun elə ilk aylarından etibarən Şahramanyan nala-mıxa vurmağa başladı. 2023-cü ilin oktyabrında İrəvanda əhali qarşısında çıxış edən Samvel “dqr”in strukturlarının buraxılmadığını, “xalqın yaratdığı qurumun” kiminsə fərmanı ilə ləğvinin qeyri-mümkün olduğunu bildirdi. Rejim mənsubları hazırda bir vaxtlar “dqr”in Ermənistandakı nümayəndəliyi olmuş binaya sığınaraq orada fəaliyyət göstərməkdədirlər. Onlar keçmiş separatçı rejimi “mühacirətdəki hökumət” adlandırmaqdan da çəkinmirlər.

*(ardı 4-cü səhifədə)*

# Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Daşkənddə Müstəqillik abidəsini ziyarət ediblər



**Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Daşkənddə Müstəqillik abidəsini ziyarət ediblər.**

Dövlətimizin başçısının şərəfinə burada fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Məlumat verildi ki, Özbəkistanın müstəqilliyinin 30 illiyi münasibətilə ucaldılan abidə özbək xalqının üç min illik tarixini əks etdirir. Yeni abidə paytaxt yaxınlığında yerləşən, ölkənin müstəqilliyinin ildönümünə həsr olunan "Yangi Uzbekiston" ("Yeni Özbəkistan") kompleksinin mərkəzində yerləşir. Altmış metr hündürlüyündə abidə görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti ilə əlamətdar olan dövrü əks etdirir.



Abidənin üzərində Özbəkistan tarixində qədim vaxtlardan müasir dövrədək baş verən mühüm hadisələr təsvir edilib. Kompleksdə əsasən sərkərdə və döyüşçülərin, alim və mütəfəkkirlərin, maarifçilərin obrazları əks olunub. Müstəqillik abidəsini sülhü, azadlığı, xeyirxahlığı və xoşbəxtliyi tərənnüm edən, qanadları geniş açılmış Humay quşunun obrazı tamamlayır.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva burada xatirə şəkli çəkdirdilər.

***AZƏRTAC***

## Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Zeynalov Elşən Əsgər oğlu – general-mayor

**"Vətən uğrunda" medalı ilə**

Bağırov Mahir Şahvələd oğlu – polkovnik
Bəxtiyarov Rəşad Tapdıq oğlu – polkovnik
Nəcəfli Polad Həbib oğlu – polkovnik
Əliyev Mürsəl Sadıq oğlu – polkovnik-leytenant
İbrahimli Fuad Bafadar oğlu – polkovnik-leytenant
Musayev Bəhruz İlham oğlu – mayor

**"İgidliyə görə" medalı ilə**

Abbasov Pərviz Şahbaz oğlu – polkovnik
Abdullayev Eldar Əziz oğlu – polkovnik
Qazıyev Xəyyam Osman oğlu – polkovnik-leytenant
Tağıyev Ruslan Sahib oğlu – polkovnik-leytenant
Aslanov Afiq Mobil oğlu – mayor
Babayev Elşad Vaqif oğlu – mayor

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Hüseynov Hafiz Elman oğlu – ədliyyə polkovniki
Hüseynov Seyran Tofiq oğlu – polkovnik
İsmayılov Muqdat Məmməd oğlu – polkovnik
Rəhimov Vüqar Həsənağa oğlu – polkovnik
Cəlilov Bəhram Bayram oğlu – polkovnik-leytenant
Hümbətov Coşğun Qənbər oğlu – polkovnik-leytenant
İskəndərov İlqar İdris oğlu – polkovnik-leytenant
Qasımov Ramil Ravi oğlu – polkovnik-leytenant
Namazov Ruslan Zaman oğlu – polkovnik-leytenant
Adıgözəlova Arzu Üzeyir qızı – mayor
Eynəliyev Tural İslam oğlu – mayor
Əliyev Rəsul Etibar oğlu – tibb xidməti mayoru
Əmirli Qorxmaz Rauf oğlu – tibb xidməti mayoru
Hacıyev Elnur Etibar oğlu – mayor
Qurbanov Fərid Natiq oğlu – mayor
Məmmədov Əyyub Alof oğlu – mayor
Bağırov Elmar Vaqif oğlu – kapitan
Əliyev Bəhmən Elman oğlu – kapitan
Nəsirov Elman Haqverdi oğlu – kapitan
Rəhimov Murad Heybət oğlu – kapitan
Tağıyev Elçin Etibar oğlu – kapitan
Tağıyev İlkin Ədalət oğlu – kapitan
Qədimalıyev Aslan Kərəm oğlu – baş leytenant
Məmmədov Samir Vaqif oğlu – baş çavuş.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 avqust 2024-cü il**

## Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin aşağıdakı hərbi qulluqçuları "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilsinlər:

Babayev Əli Aydın oğlu – polkovnik-leytenant
Fərzəliyev Teymur Qaçay oğlu – polkovnik-leytenant
Hüseynov Tofiq Qabil oğlu – polkovnik-leytenant
Abdullayev Ülvi Saleh oğlu – mayor
Məmmədyarov Kənan Ramiz oğlu – mayor
Əliyev Aleksey Ələmət oğlu – kapitan
Qurbanov Anar Eldar oğlu – kapitan
Mehrəliyev Zahir Şakir oğlu – kapitan
Abdullayev Rövşən Vəliş oğlu – baş çavuş
Əlizadə İlqar Qoşqar oğlu – baş çavuş
Əmirov Pərviz Vaqif oğlu – baş çavuş
Zeynalov Timur Bulud oğlu – baş çavuş.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 avqust 2024-cü il**

## Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Əmirov Rüfət Fikrət oğlu – polkovnik
Zalov Elşad Məhərrəm oğlu – mayor

**"Vətən uğrunda" medalı ilə**

Kərimov Zaur Ziyad oğlu – tibb xidməti polkovniki
Xəlilov Azər Akif oğlu – polkovnik-leytenant
Qəmərli Emin Ələkbər oğlu – polkovnik-leytenant

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Ağayev Ruslan Ağamirzə oğlu – mayor
Həsənov Aydın Mahir oğlu – mayor
Hüseynov Zaur Ziraddin oğlu – mayor
Şühraliyev Şamiq Ərşad oğlu – mayor
Yusif-zadə Qulam Eldar oğlu – mayor
Quliyeva Aygün Məhərrəm qızı – kapitan
Novruzov Fariz Xanlar oğlu – kapitan
Novruzov Nadir Oqtay oğlu – kapitan
Hacıyeva Leyla Vaqif qızı – leytenant
Verdiyeva Günel Akif qızı – gizir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 avqust 2024-cü il**

## Mediann peşəkarlığı və səmərəli kommunikativ fəaliyyət



**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü, "Naxçıvan Təlim Mərkəzi"nin təşkilatçılığı və Naxçıvan Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə muxtar respublikanın dövlət orqanlarında çalışan mətbuat işçiləri üçün təlim keçirilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova bildirib ki, təlimin məqsədi mediada savadlılıq anlayışının müasir tələblərə uyğunlaşdırılması, peşəkarlığın yüksəldilməsi və məlumat təhlükəsizliyinin təmin edilməsidir.

"Naxçıvan Təlim Mərkəzi" İdarə Heyətinin sədri Tağı Tağızadə qeyd edib ki, qurum muxtar respublikanın dövlət orqanlarında çalışan işçilərin və gənclərin peşəkar inkişafı üçün müxtəlif mövzularda kursların təşkili və təlimlərin keçirilməsi məqsədilə fəaliyyət göstərir. Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin Naxçıvan Regional İdarəsinin rəhbəri Vəfa İsgəndərova böhran vəziyyətində kommunikasiyanın qurulması və ondan düzgün istifadə ilə bağlı peşəkar tələbləri diqqətə çatdırıb, bu zaman dövlət qurumları ilə media arasında koordinasiyanın zəruriliyini vurğulayıb.

Təlim "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" QSC sədrinin müavini İlhamə Novruzovanın təqdimatında "Mətbuat konfransının, press-relizin, təqdimatın hazırlanması" mövzusu ilə davam edib.

***XQ***

## Erməni vandalizmi G20 Dinlərarası Forumunda pislənilib

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov avqustun 19-22-də Braziliyada keçirilən G20 Dinlərarası Forumunda iştirak edir.**



Dövlət komitəsindən XQ-yə bildirilib ki, forumda çıxış edən komitə sədri Azərbaycanın dinlərarası və mədəniyyətlərarası harmoniyaya əsaslanan multikulturalizm modeli, eləcə də bu nümunəvi mühitin qorunması istiqamətində həyata keçirilən dövlət siyasəti barədə ətraflı məlumat verərək deyib ki, əsrlər boyu Azərbaycanda müxtəlif konfessiyaların nümayəndələri sülh və qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Dini etiqad azadlığı, tolerantlıq ənənəsi Azərbaycan kimliyinin ayrılmaz elementinə, millətin plüralizmə sarsılmaz sadiqliyinin sübutuna çevrilib.

Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, ölkəmizin hər zaman tolerantlıq və inklüzivlik modeli olaraq qəbul edildiyini diqqətə çatdıran komitə sədri diqqətə çatdırıb ki, tarixi və dini abidələrin, müqəddəs yerlərin və ziyarətgahların bərpası, yenidən qurulması və mühafizəsi dövlətin dinə və milli-mənəvi dəyərlərə dərin hörmətini əks etdirir.

Xalqımızın tarixin müxtəlif dövrlərində dini ayrı-seçkiliyin ən qəddar formalarından əziyyət çəkdiyini diqqətə çatdıran R.Məmmədov ölkəmizin 30 il ərzində işğal altında saxlanılmış ərazilərindəki 67 məsciddən 65-nin məhv edildiyini bildirib.

***XQ***

# Azərbaycan–Rusiya–Ermənistan: daşlar yerinə necə oturur?

(əvvəli 1-ci səhifədə)

M.Zaxarova bildirib ki, Rusiyanın və Azərbaycanın dövlət başçıları Bakı ilə İrəvan arasında barışıq mövzusunu ətraflı müzakirə ediblər. O, liderlərin birgə keçirdikləri mətbuat konfransında da məsələyə toxunduqlarını xatırladıb: "Bu yolda bizim bütün səylərimiz həm Bakı, həm də İrəvanla xalqlarımız arasında dərin tarixi və mədəni əlaqələrə və regionda güclü təhlükəsizlik sistemi qurmaq üçün birgə istəyə əsaslanan xüsusi müttəfiqlik münasibətlərinin ruhuna uyğundur".

Yəni, M.Zaxarova demək istəyir ki, Lavrovun sabotaj məntiqini dramatikləşdirməyə ehtiyac yox idi. Çünki Rusiya tərəflərə paritet əsaslarla yanaşır. Ancaq rəsmi nümayəndənin sonrakı fikirləri onu deməyə əsas verir ki, Moskvanın sülh prosesində iştirakını istəməyən tərəf İrəvandır. Əlbəttə, M.Zaxarova bundan qabaq Ermənistan-Azərbaycan sərhədində gərginliyin artmasına da münasibət bildirib. Daha doğrusu, ölkəsinin həmin gərginliyin aradan qaldırılması üçün hansı tədbirlər gördüyünü açıqlayıb. O deyib ki, rəsmi Moskva mütəmadi olaraq İrəvanı və Bakını təmkinli davranmağa, vəziyyətin pisləşməsinə səbəb ola biləcək hərəkətlərdən çəkinməyə çağırır: "Bütün mübahisəli məsələlər müstəsna olaraq dinc siyasi və diplomatik vasitələrlə həll edilməlidir".

Bəli, Rusiya XİN-in rəsmi nümayəndəsi 44 günlük müharibəyə son qoyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatdan söz açıb. O bəyanatdan ki, orada Azərbaycan və Rusiya liderlərinin, ən əsası isə müharibə məğlubu Ermənistanın baş naziri Nikol Paşinyanın imzası var. Zaxarovanın sözlərindən gəlinən qənaət budur ki, məhz üçtərəfli bəyanat Azərbaycan və Ermənistan arasındakı danışıqların sonrakı raundu üçün çıxış nöqtəsi, mənəvi istinad mənbəyi idi. Daha dəqiq desək, sonrakı proseslər həmin sənədin ruhuna uyğun olmalı idi və müəyyən müddət olub da. Amma...

Beləliklə, M.Zaxarova üçtərəfli bəyanatın vacib 9-cu bəndi üzərində dayanıb. Yeri gəlmişkən, Lavrovun Ermənistana yönəlik sabotaj məntiqinin də meydana çıxmasına səbəb rəsmi İrəvanın məhz bu bəndi yerinə yetirməkdən boyun qaçırmasıdır. Bir halda ki, A.Badalyan Lavrova cavab verməyə söz tapır, Zaxarova da Ermənistanın konkret nədən boyun qaçırdığını açıqlamalıdır və açıqlayır. Onun sözlərinə görə, İrəvanın öhdəliklərinə dair Azərbaycan, Ermənistan və Rusiya nümayəndələri arasında aparılan müzakirələrdəki başlıca məqam Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhədçilərinin Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında maneəsiz əlaqəyə nəzarəti həyata keçirmələrinə dair müddəa olub. Axı üçtərəfli bəyanatın 9-cu bəndində açıq şəkildə bildirilir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".



Bəli, S.Lavrov müsahibəsində məhz bu öhdəlikdən boyun qaçırmanı nəzərdə tutaraq, Ermənistanın regional kommunikasiyaların açılmasını sabotaj etdiyini vurğulamışdı. Rusiya XİN başçısı belə demişdi: "Biz sülh müqaviləsinin tezliklə bağlanması və kommunikasiyaların açılmasının tərəfdarıyıq. Təəssüf ki, Ermənistanın Sünik rayonundan keçən kommunikasiyalara gəldikdə, məhz Ermənistan rəhbərliyi baş nazir Nikol Paşinyanın imzaladığı razılaşmanı sabotaj edir. Belə bir mövqenin mənasının nədən ibarət olduğunu dərk etmək çətindir. Mən əminəm ki, üçtərəfli sənədlər çərçivəsində qoyulan özül tam həcmdə aktuallığını qoruyub saxlayır".

Məsələyə mövcud prizmadan yanaşsaq, Ermənistan XİN sözçüsü A.Badalyanın Lavrovun bildirdiklərinə cavabı, heç bir halda, adekvat deyil. Nəinki adekvat deyil, aşkar həyasızlıqdır. A.Badalyan bildirib ki, Rusiya Xarici İşlər Nazirliyinin müxtəlif rəsmilərinin ölkəsi ilə bağlı həqiqətə uyğun olmayan, açıq-aşkar qərəzli, tez-tez hörmətsiz şərhləri davam edir. Onun sözlərinə görə, belə hallar yeni deyil və erməni tərəfi bu cür şərhlərə uzun müddətdir cavab vermirdi: "Rusiya XİN rəhbərinin dünənki bəyanatı nəinki açıq-aşkar təəssüf hissi doğurur, həm də Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesində Rusiya Federasiyasının konstruktiv iştirakını şübhə altına alır".

Deməli, A.Badalyanın şəxsində Ermənistan dövləti açıq-aşkar bir daha bəyan edir ki, Rusiya Bakı-İrəvan nizamlamasına qarışmamalıdır. Badalyan həyasızlıq salıb Moskvanın vasitəçiliyini şübhə altına almaq yolu tutursa, başqa cür düşünməyə əsas yoxdur. Zaxarova isə danışıqlardakı konkret detalları həm də bu həyasızlığa görə açıqlayır. O detalları ki, onlara nəzərən sülh nizamlanmasının uğur qazandığından danışmaq mümkün idi. Məsələn, Rusiya XİN sözçüsü deyir ki, Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinlərinin həmsədrlik etdiyi nəqliyyat əlaqələrinin blokdan çıxarılması üzrə üçtərəfli işçi qrupunun 12 raundluq müzakirəsindən sonra, tərəflər üçtərəfli sazişin 9-cu bəndinin praktiki icrasına yaxın göründülər. Bundan başqa, Azərbaycan Ermənistanın dəmir yolu əlaqəsinin bərpasını avtomobil yolu ilə əlaqələndirməmək istəyi ilə razılaşıb. Özü də İrəvanın avtomobil yolu əlaqəsinin yaradılması baxımından konkret tarix göstərməməsinə rəğmən. Göründüyü kimi, ölkəmiz mümkün qədər konstruktiv davranıb.

Ən əsası, M.Zaxarovanın bildirdiklərindən o nəticə də hasil olur ki, tərəflər iki ölkənin suverenliyini pozmamaq üçün tam yurisdik əsaslarla həyata keçirilməli olan gömrük prosedurlarına qədər hər şeyi razılaşdırıbmışlar. Ancaq rəsmi İrəvan son anda mövqeyindən uzaqlaşaraq, Rusiya sərhədçilərinin təkcə Ermənistan deyil, həm də Azərbaycan tərəfində nəzarəti həyata keçirməsi şərtini irəli sürüb. Biz də bilirik, Zaxarova da təsdiqləyir ki, Azərbaycan məsələ ilə razılaşa bilməzdi və razılaşmayıb. Görünür, İrəvan yerinə yetirilməsi mümkünsüz şərti məhz bu səbəbdən qoyub. Axı onun yanaşması üçtərəfli bəyanata tamamilə ziddir. Deməli, Lavrovun sabotaj məntiqindəki daşlar tam şəkildə yerinə oturur. Yəni, danışıqların nə üçün dalana dirəndiyi aydınlaşır. Əlavə edək ki, Ermənistan sonradan Rusiya sərhədçilərinin nəqliyyat axınına nəzarətindən imtina edib və üçtərəfli işçi qrupunda iştirakını, faktiki olaraq, dondurub.

M.Zaxarovanın açıqlamasından sonra Ermənistanın hakimiyyətə müxalif mediası, habelə ekspert və politoloq cameəsi səbəb-nəticə əlaqələrinə köklənərək bildirir ki, İrəvan sözügedən işçi qrupunun 2023-cü ilin iyununda keçirilmiş iclasında üçtərəfli bəyanatdan uzaqlaşdığını göstərib və buna görə Azərbaycan 2023-cü ilin sentyabrında (lokal xarakterli antiterror tədbirləri ilə - red.) Qarabağa tam şəkildə sahiblənib. Yəni, baş nazir Nikol Paşinyana ittiham mövcud xüsusdadır. Bu xüsus Rusiya amilini qabardır və elə təəssürat yaranır ki, əgər İrəvan şərtləri yerinə yetirsəydi, Qarabağdakı separatçı rejim mövcudiyyətini saxlayacaqdı.

Ancaq bir məqam da vurğulanmalıdır. Söhbət 2022-ci ilin olaylarından gedir. Rusiya tərəfi çox tez-tez Ermənistanı Azərbaycanla danışıqlarda Qərb platformasına üstünlük verməkdə günahlandırır və elə rəy formalaşır ki, əgər Paşinyan Qərbi deyil, Rusiyanı seçsəydi, Qarabağ Ermənistanın nəzarətində qalacaqdı. Əlbəttə, məsələnin qoyuluşu sırf "nəzarətdə qalmaq" şəklində deyil. Hər halda, Prezident Putin də, elə Lavrovun özü də dəfələrlə bildirib ki, erməni baş nazir 2022-ci ilin oktyabrında Praqada, Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etdikdən sonra bölgə ilə bağlı müzakirə predmeti, o cümlədən, status məsələsi sıradan çıxıb. Ancaq sual olunur: Rusiya rəsmiləri bu tezisə nə vaxt üz tutublar? Aydındır ki, 2023-cü ilin sonu və 2024-cü ilin əvvəlində. Deməli, sabotaj məntiqi ilə bağlı daşlar bir daha yerinə oturur. Ermənistan 2023-cü ilin iyununda üçtərəfli işçi qrupunun iclasını boykot etmişdisə və Moskva bunadək Praqa görüşündə Paşinyanın söylədiklərinə fokuslanmamışdısa, onu ittiham etməmişdisə, deməli, qırılma nöqtəsi Praqa sammiti yox, həmin boykot olub.

Əlbəttə, Azərbaycan hər zaman Ermənistanla nizamlama prosesinə səbr və təmkinlə yanaşıb. Bu yanaşma 2020-ci ildən 2023-cü ilin sentyabrınadək davam edib. Başqa sözlə desək, ölkəmiz oyun qaydalarına tam riayət edərək, öz anını gözləyib. Zaxarovanın diqqətə çatdırdığı trayektoriyanı əsas götürsək, ölkəmiz üçtərəfli işçi qrupunun məhz iyunda keçirilmiş toplantısından sonra qəti qərara gəlib ki, Ermənistan öz xoşu ilə heç nəyə razı olan deyil. Nəinki razı olan deyil, ölkə rəhbərliyi həyasızlıq yolu tutur. Hər halda, Rusiya sərhədçilərinin Azərbaycan tərəfində keşik çəkmələri tələbi həyasızlıqdan və qeyri-ciddilikdən başqa bir şey deyil. Digər tərəfdən, tam aydındır ki, hətta bu tələb yerinə yetirilmiş olsaydı da, rəsmi İrəvan başqa nələrisə qondaracaqdı. Çünki Qərb direktivləri ilə hərəkət edirdi və məqsədi Rusiyanı tam şəkildə bölgədən sıxışdırmaq idi.

Bütün bu qeyd etdiklərimiz fonunda hazırda Azərbaycan-Ermənistan nizamlaması üzrə Qərb xətti təmsilçilərinin son zamanlardakı açıqlamalarına diqqət yetirək. Onlar Bakı-İrəvan sülhünün, o cümlədən, bu sülhün vacib komponenti sayılan regional kommunikasiyaların bərpasının, iqtisadi əlaqələrin yaranmasının və möhkəmlənməsinin Rusiyanın Cənubi Qafqaza təsirini heçə endirmək məramından söz açırlar. Başqa sözlə desək, sülh sazişini Moskvanı regiondan tamamilə sıxışdırmağın, geosiyasi rəqabətin predmeti kimi gördüklərini bəyan edirlər. Daşlar yerinə həm də ona görə oturur ki, bu siyasət daha açıq, ən əsası dönməz şəkildə özünü ilk dəfə 2023-cü ilin iyununda – Ermənistan üçtərəfli işçi qrupunun fəaliyyətini dalana dirəyəndə göstərib. Erməni mediası hazırda bunu Paşinyanın şüurlu seçimi kimi qələmə verir və iyundan sonrakı hadisələrin xronoloji ardıcıllığına nəzər salaraq, məntiqi qanunauyğunluq tapır. Loru dildə desək, "Rusiyaya qarşı çıxmazdın, Qarabağ getməzdi" fikrini qabardır.

Bütün bunlardan belə qənaətə gəlmək mümkündür ki, Ermənistan Azərbaycanla danışıqlar prosesinin Rusiya seqmentini, yəni Moskvanın vasitəçiliyini inkar edəndə itkilərlə üzləşib. İndi də eyni yoldadır və deməli, ölkə yeni itkilərə hamilədir. Ancaq məsələnin başqa tərəfi də var. Sual olunur: Ermənistan hansı platformada konstruktiv olub ki? Ölkə Qərb tənzimləmə xəttində də ipə-sapa yatmayıb, öz avantürizmini gerçəkləşdirmək üçün tutacaq yerlər axtarıb. Əlbəttə, istəyinə nail ola bilməyib.

Ermənistan indinin özündə də Qərbə arxalanaraq, sülh prosesindən yayınmağa çalışır. Danışıqlar xüsusunda canını tapşırmış ATƏT-in Minsk qrupu formatını işə salmaqdan dəm vurur. Üstəlik, özünü Qərbin anti-Rusiya cəbhəsinin vacib səngəri kimi təsəvvürə gətirir. Bir sözlə, Paşinyan iqtidarı həmişəki kimi odla oynayır. Vaxt gedir, zaman isə inkarçılığı pataloji xəstəliyə çevirmiş Ermənistanın əleyhinə işləyir. Bunu görməmək üçün yalnız kor olmaq lazımdır.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Ukraynada anti-Azərbaycan "sindromu" – məyusuq, amma gözləntimiz var

(əvvəli 1-ci səhifədə)




Sanki Ukraynada Azərbaycana qarşı düşmən münasibəti hər an işə salmağa hazır bir qütb var imiş və öz anını gözləyirmiş. Görünür, o an Putinin Bakıya səfəri ilə yetişdi. Əlbəttə, təəssüf doğuran mənzərədir. Ancaq ən təəssüflü məqam Ukrayna dövlətinin eybəcərliyə səssiz, seyrçi qismində yanaşmasıdır. Azərbaycanla, Azərbaycan cəmiyyəti ilə bütün körpülərin yandırılmasını izləmək bu qədərmi rahatdır? Məsələn, biz bu sətirləri narahatlıq və məyusluqla qələmə alırıq. Amma bəzi məqamları mütləq şəkildə bildirməliyik. Yazımızın sonunda da bu məqama qayıdacağıq. Çünki nəticə çıxarılmasını arzulayır və tələb edirik.

Bəli, Rusiya Ukraynaya münasibətdə, yumşaq desək, düz etməyib. Biz də bilirik ki, Moskva hansı əsası gətirməsindən asılı olmayaraq, Ukraynanın beynəlxalq hüquqla tanınmış ərazilərində separatçı rejimlərin dəstəklənməsi yolverilməzdir. Buna görə də Azərbaycan Ukraynanın ərazi bütövlüyünü və suverenliyini tam dəstəklədiyini bəyan edir.

Rəsmi Kiyev də eyni addımı atıb. Yəni Ukrayna dövləti vaxtilə bildirirdi ki, Azərbaycan torpaqları işğal olunub. İstər Azərbaycanın Ukraynaya, istərsə də Ukraynanın Azərbaycana münasibətdəki bu cür qəti mövqelər səsləndirməsi beynəlxalq dəstək baxımından vacib idi. Ancaq məsələ elə bununla da məhdudlaşırdı. Yəni, Ukrayna o zaman erməni işğalının başa çatması naminə diplomatik addımlardan başqa heç nə etmirdi. Məsələn, Türkiyə və Pakistan kimi davranmırdı. İşğalçı Ermənistanın o zamankı prezidenti Serj Sarkisyan ölkədə hərarətlə qarşılanırdı.

*

Əslində, mövcud xüsusda Ukraynadan fövqəladə gözləntimiz yox idi. Nəhayət, hər kəs öz işi ilə məşğul olmalı, problemini özü həll etməlidir. Ukrayna ilə bağlı hazırkı problemin isə beynəlxalq hüquq prizmasından olan bir tərəfinə diqqət yetirdik. Nəzərə alaq ki, onun digər aspekti də var. Dağıdılmış şəhərlər, məhv edilmiş kənd və qəsəbələr, viran olunmuş yaşayış məntəqələri, üstəlik saysız-hesabsız ölümlər...

Nəzərə alaq ki, bir dövlətin o biri dövlətə qarşı müharibəsini, düşmənçiliyini şərtləndirən müəyyən, hansısa məqamda, təbii səbəblər olmalıdır. Hansı səmtdən yanaşsaq, Ukrayna və Rusiya xalqları qardaşdırlar. Necə oldu ki, qardaşlıq bir andaca düşmənçiliyə çevrildi? Hesab edirik ki, suala Ukrayna ictimaiyyəti, elə Azərbaycanı qınamaq yolu tutan ölkə mediası da cavab verməlidir. Amma səmimi şəkildə.

Biz, məsələn, deyə bilərik ki, Qərb Ukraynanın köməyi ilə özünün anti-Rusiya ritorikasını gerçəkləşdirməyə çalışıb və ölkəni bataqlığa sürükləyib. Hər halda, heç nə elə-belədən olmur. Səbəb-nəticə əlaqələrinin mövcudluğu mütləqdir. Məgər, Rusiyaya Ukrayna ilə müharibə lazım idi? Yoxsa, rəsmi Moskva bunun ziyanını düşünməyəcək qədər qısır mahiyyətə köklənmişdi? Əlbəttə ki, yox. Elə isə qısaca Qərb-Rusiya ədavətinə diqqət yetirək.

*

"Soyuq müharibə"nin başa çatması, SSRİ-nin dağılması ilə dünyada yeni düzən yarandı. Bu düzəni quranlar nəhəng imperiya üzərində qələbələrini toy-bayram etdikdən sonra ayıldılar ki, SSRİ getsə də, yerində Rusiya qalıb. Halbuki onlar birqütblü dünya formalaşdırmaq niyyətinə köklənmişdilər. Ancaq gördülər ki, Moskvanın varlığı ikiqütblülük yaradır. Elə həmin andan Rusiyanın üzərinə yeriməyə başladılar. Əvvəl Balkanlarda, sonra Afrikada nüfuz davasından qalib ayrıldılar. Yaxın Şərqə girişdilər və uğur qazandılar. Postsosialist ölkələrini Qərbin egidasına daxil edib, onlarda aktiv anti-Rusiya dalğası formalaşdırdılar. Tədricən postsovet məkanına keçdilər. Yenə üstünlük qazandılar. Əlbəttə, bu uğurlarda günahkar həm də Rusiya idi. Çünki ölkədəki millətçilik və şovinizm mütərəqqi fikirlərə qarşı cəbhə açırdı. Üstəlik, keçmiş SSRİ sindromu psixoloji baxımdan dünyada diskomfort yaradırdı ki, Qərb bu durumu öz xeyrinə çevirməyi bacardı.

Belə bir şəraitdə Rusiya nə edirdi? Yeltsin Rusiyası obrazlı ifadə etsək, sərxoşluqdan ayıla bilmirdi. Prezident Vladimir Putinin Rusiyası isə ayıq idi və 1998-ci ildən başlayaraq aramsız şəkildə bəyan etdi ki, Qərb Rusiyanın sərhədlərinə doğru gəlməsin. Putin məsələni çox sadə şəkildə qoydu: biz siz tərəfə gedirik ki, siz də biz tərəfə gəlirsiniz?

Bəli, hazırkı Rusiya-Ukrayna müharibəsi, böyük ölçüdə, Qərbin Rusiyaya doğru yaxınlaşması, onu zəiflədərək tam gücdən salması, nəhayət parçalamaq planlarının tərkib hissəsidir. O zaman sual olunur: Ukrayna hakimiyyəti bu planda yer almaya bilməzdimi? Olmazdımı ki, indiki fəlakətlər barədə əvvəlcədən düşünüləydi? Bunu təkcə Ukrayna deyil, elə Rusiya ictimaiyyəti də düşünməlidir. Özü də müştərək şəkildə. Ancaq düşünmürlər və müharibə uzandıqca, körpülər yandırılır, sağalmaz yaralar açılır. Çox məyusedici durumdur.

*

Azərbaycanda bütün bunları yaxşı görürlər. Ölkəmizdə onu da görürlər ki, Qərb Rusiyaya qarşı mübarizəni, sanki, orta əsrlərin səlib yürüşünə çevirib. Mübarizədə iştiraka görə ayrı-ayrı dövlətlərə münasibət formalaşır, hansısa dəngələr müəyyənləşir, hesablamalar aparılır və s. Bir sözlə, oyunbazlıq həyata keçirilir. Azərbaycan nə etməlidir? Oyunlarda alətəmi çevrilməlidir? Əlbəttə ki, yox!

Azərbaycan bu gün də erməni avantürizmini dəstəkləyən, onun çiçəklənməsi üçün əlindən gələni edən Qərbin Ukrayna böhranı fonundakı saxtakarlıqlarına dəstək verməli, oyunlara qatıla bilməz. Məgər, Ukraynada bilmirlərmi ki, Azərbaycan özünün müstəqil siyasi xəttinə sadiq olub və yenə sadiqdir? Məsələn, bunu hazırkı Putin Rusiyasında yaxşı anlayırlar.

Azərbaycan Avropaya qaz nəqlini artırıb. Ölkəmizlə Avropa İttifaqının ayrı-ayrı qurumları arasında mövcud istiqamətdə razılaşmalar var. Yəni, Avropa qışda Azərbaycan qazı hesabına donmayacaq ki, Ukraynanın Rusiyaya qarşı mübarizəsinə dəstək versin. O zaman ikinci də bizi günahlandıra bilər. Amma günahlandırmır. Əvəzində ölkəmizin SOCAR-ı ilə Rusiyanın "Qazprom"u arasında planlı strateji tərəfdaşlıq razılaşması əldə olunur.

Yəni, Azərbaycan özünün maraqları çərçivəsində, üçüncü tərəfə ziyan vurmadan, hər bir dövlətlə normal münasibətlərini saxlayır. Tutaq ki, bunu Ukrayna mediası və sosial şəbəkə seqmenti anlamır. Bəs ölkənin hakimiyyəti necə? Axı ölkədə kütlə psixologiyasının vüsətinə və ayrı-ayrı ermənipərəst təxribatçıların cılızlıqlarına meydan verilməməlidir...

*

Görəsən, Ukraynada Ermənistanın özünü Qərbin anti-Rusiya cəbhəsinin səngərində hiss etdiyini və Azərbaycan-Rusiya işbirliyi amilini qabardaraq, işğalçılıq niyyətlərini, avantürizmi gerçəkləşdirməyə çalışdığını bilmirlər? Bilmirlər ki, rəsmi İrəvan dünyanın Ukrayna həssaslığını Bakıya münasibətdə antipatiya yaratmaq, Azərbaycana qarşı təzyiqlərin və sanksiyaların tətbiqinə nail olmaq üçün istifadə edir? Belə bir mənfur siyasətin təsirinə uğrayıb Azərbaycana qarşı çıxmaq nə dərəcədə düzgündür? Nəzərə almaq olmurmu ki, həmin SOCAR müharibə zamanı Ukraynada humanitar fəaliyyət gerçəkləşdirib? Digər tərəfdən, Azərbaycandan ölkəyə müxtəlif təyinatlı yardımlar da göstərilib. Bunu minnət kimi demirik. Ölkəmiz bəşəri dəyərlərə sədaqət xəttinə söykənib. Amma bizim heç kəsə borcumuz yoxdur. O cümlədən, Ukraynaya da. Elədiklərimizi də borc kontekstində görmürük. Soruşmuruq ki, nəyə görə torpaqlarımız 30 il işğalda qalanda Ukrayna bizə əməli dəstək vermədi?

*

Bəli, demokratiyadan da danışaq. Dünyada demokratiya adı altında çıxarılan oyunlardan da həmçinin. Bu gün Ermənistan Ukraynanın yanında kimi görünür. Niyə? Ona görə ki, özünü demokratik sayır. O səbəbdən ki, Qərbin anti-Rusiya təmayülü baxımından aktual olan Rusiyanı avtoritar kimi təqdim etmək ritorikasından, ənənəvi klişelərdən xəbərdardır. Bilir ki, Rusiya-Ukrayna müharibəsi həm də demokratiyanın avtoritarizm üzərindəki mübarizəsi qismində təqdim olunur. Nəticədə rəsmi İrəvan bütün beynəlxalq platformalarda Azərbaycanın, guya, avtoritarizmin cəbhəsində yer aldığını vurğulayır. Necə ola bilər ki, Ukraynada bunu düşünən yoxdur? Şübhəsiz ki, var. Sadəcə, görünür, indi meydan başıpozuqlarındır.

*

Sonda onu da deyək ki, Azərbaycan hakimiyyəti də, elə bütövlükdə cəmiyyəti də Ukrayna ilə dostluğa sadiqdir. Yaxşı olar ki, ölkənin mütərəqqi dairələri bunu əsas götürsünlər. Əsas götürsünlər və Azərbaycana qarşı bu iyrənc kampaniyanı sakit izləməsinlər. Ən əsası, rəsmi Kiyev dərhal və təxirəsalınmaz tədbirlər görərək, hazırkı rəzilliyi dayandırsın. Əminik ki, buna imkanı və gücü yetər.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Yenə silah, yenə İran...

## Rəhbərlik dəyişdi, amma Tehranın Bakıya qarşı ikili siyasəti davam edir

**Bunun başqa adı yoxdur. Sadəcə, ikiüzlülük! Dünyanın hansı dövründə yaşayırıq ki, qonşuda baş verənlərdən xəbər tuta bilməyək? Bəlkə, heç İran hakimiyyəti ərazisindən Ermənistana silah daşınması faktını gizlətmək barədə düşünmür? Düşünmür və davranışı ilə Bakıya görk üçün hətta "qatı düşməni" NATO-ya üzv ölkələrlə gizli sövdələşməyə belə getməyə hazır olduğunu nümayiş etdirir.**

İnanılmaz görünə bilər, amma çılpaq həqiqətdir: Rusiya–Ukrayna münaqişəsi kontekstində "ölkələrin ərazi bütövlüyü" prinsipini müdafiə edən Qərb bu yaxınlara qədər Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlayan və hələ də separatçı-revanşist xəyallarından imtina etməyən Ermənistana durmadan hücum, ağır, öldürücü silahlar ötürməklə məşğuldur və bu projeni İran vasitəsilə həyata keçirir. Daha maraqlı fakt isə İrəvanı silahlandırma "marafonuna" Hindistandan başqa Almaniyanın da qoşulmasıdır. Birləşmiş "çete", doğrudanmı Cənubi Qafqazda yeni müharibəni körükləndirməkdə qərarlıdır?






* * *

### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı**

Ermənistan hansı ölkədən mümkündürsə, oradan hərbi texnika almağa çalışır. İrəvanın Fransa və Hindistanla razılaşmaları var və onlar Ermənistana silah göndərməkdə davam edirlər. Paris Ermənistanın hərbi nöqteyi-nəzərdən Azərbaycan qarşısında zəif düşməsinin qarşısını almağa çalışır. Ermənistanın aldığı hərbi texnikaya görə Fransaya pul ödəməsi barədə məlumat yoxdur. Hindistanın Ermənistana hərbi texnika satması isə əsasən, iqtisadi amillə bağlıdır. Nyu-Dehli hərbi-sənaye kompleksini inkişaf etdirir. Son 10 ildə hərbi ixracatını 30 dəfədən çox artırıb. Hindistan daha çox ölkəyə silah satmağa çalışır. Nyu-Dehlinin məqsədi qlobal silah bazarında payını artırmaqdır. Hindistan ABŞ, İsrail və digər ölkələrin lisenziyaları əsasında da hərbi texnika istehsal edir. Bu ölkənin Müdafiə Nazirliyinin məlumatına görə, 2024-cü ilin aprel-iyun aylarında silah ixracı bir il əvvəlki dövrdəki 3,885 milyon rupidən 6,915 milyon rupiyə qədər yüksəlib. Hindistan üçün Ermənistan hərbi texnika satdığı növbəti ölkələrdən biridir. Bəli, Nyu-Dehlinin İrəvana hərbi texnika satması Bakıda narazılıqla qarşılanıb. Rəsmi Bakı Hindistanın bu siyasətini korrektə etməsini istəyir. Çünki Hindistanın Ermənistana hərbi texnika satmasına baxmayaraq, Nyu-Dehlinin Cənubi Qafqazda əsas ticarət tərəfdaşı Azərbaycandır. Hindistan Azərbaycandan aldığı neftin həcmini ildən-ilə artırır. Turizm sahəsində də əməkdaşlıq inkişaf edib.

Bu vəziyyətdə Azərbaycan nə etməlidir? Yaranmış vəziyyətdə Bakı da hərbi-sənaye kompleksinin inkişafını sürətləndirməli, tərəfdaş dövlətlərdən müasir hərbi texnikanın alışına və birgə istehsalına diqqəti artırmalıdır.

---

Aşkar görünən odur ki, ABŞ, Fransa və Avropa İttifaqı Ermənistana Rusiya-Ukrayna müharibəsindən pul qazanmaq imkanı yaratmaqla, onlardan aldığı hər növbəti mərmi ilə daha da aqressivləşən və revanşistləşən Ermənistanı kütləvi silahlandırmağa tələsir. Bu zaman üzdə ermənipərəst kimi görünən, amma əslində öz mənafeiyini güdən kollektiv Qərbə meyl edən Hindistan da haylara fasiləsiz silah-sursat göndərir. Müsəlman qardaşımız İran isə Ermənistan ordusunun müasir silahlarla doldurulmasına öz "töhfəsini" verir.

Bu barədə məlumatı "Caliber.az" paylaşıb. Sayt qeyd edir ki, diplomatik və hərbi mənbələrdən daxil olan, təsdiqlənmiş eksklüziv materiallara əsasən, son bir neçə həftə ərzində Ermənistana Fransanın 155 mm-lik "Sezar" özüyeriyən artilleriya qurğuları və onların komponentləri, həmçinin tank əleyhinə raket kompleksləri və "Havaya" raketləri çatdırılıb. Bu silahlar Fransanın Orli hava limanından İranın Mehrabad hava limanına göndərilir, oradan isə İranın "Merac" aviaşirkəti silahları birbaşa son ünvana – Ermənistana çatdırır.

Hayastanın silahla təchizatının miqyasını daha dəqiq təsəvvür etmək üçün qısa statistikaya müraciət edək: Rusiya-Ukrayna müharibəsinin əvvəlində Fransa ordusunun balansında cəmi 76 "Sezar" var idi. Bundan əlavə, Ermənistan ordusunun sərəncamına onlarla "R511" və "R530" "hava-hava" tipli raketlər, 30 ədəd "ERYX" tank əleyhinə raket, Almaniya istehsalı olan onlarla "DM32" qumbaraatanları ("Bunkerfaust" kimi də tanınır), tank əleyhinə 3 sistem, həmçinin "Panzerfaust" da daxil olub. Daha sonra, Ermənistan silahlı qüvvələrinə Fransa istehsalı olan 500-ə yaxın birdəfəlik "Apilas" reaktiv yaylım atəşi sistemləri və ABŞ-nin 50 ədəd "BGM71-TOW" tank əleyhinə raket kompleksləri verilib.

Yuxarıda göstərilənlər arasında diqqəti xüsusilə Fransanın "R511" və "R530" hava-hava raketləri cəlb edir. Ekspertlərin fikrincə, müvafiq modifikasiya prosesindən sonra bu raketlər Ermənistana məxsus müasir "Su-30" qırıcı təyyarələrində quraşdırılacaq. Nəhayət, İrəvanın hərbi təchizatı məsələsində Almaniya silahlarının olması xüsusi qeyd edilməlidir. NATO silahlarının Ermənistana çatdırılması faktı onu göstərir ki, Almaniya və ABŞ bununla bağlı Parisə müvafiq icazəni veriblər. Bu prosedur olmadan Almaniyanın "Panzerfaut"ları, "Bunkerfaust"ları, eləcə də ABŞ-nin "TOW"ları hay ordusunun sərəncamında ola bilməzdi. Pentaqonun Ermənistanın hərbiləşdirilməsində birbaşa iştirakı barədə oxuculara məlumat vermişdik. Amma Almaniyanın "hərbi marafonda" iştirakı yenilikdir.

* * *

Azərbaycan onu da bilir ki, Fransa silahlarının hava ilə ötürülməsinə paralel olaraq, İranın Bəndər-Abbas dəniz limanı Hindistandan Ermənistana sonrakı daşınma üçün nəzərdə tutulan hərbi yüklər də alır. Bu da maraqlı detaldır: Ermənistana verilən həm Fransa, həm də Hindistan silahları qismən rəsmi bəyan edilir, qismən də mülki mallar adı ilə daşınır. Bu da öz növbəsində beynəlxalq ticarət hüququnun və logistika fəaliyyətini tənzimləyən beynəlxalq qaydaların kobud şəkildə pozulmasıdır. Başqa sözlə, burada söhbət qaçaqmalçılıqdan gedir. Bizim üçün ən maraqlısı isə Ermənistanın silahlandırılmasında əsas rolu oynayan ölkənin İran olmasıdır. Bəli, Fransa və Hindistanın göndərdikləri silah və hərbi texnika cənub qonşumuzun hava məkanı və dəniz limanları vasitəsilə çatdırılır. İkinci Qarabağ müharibəsi zamanı Rusiyanın da İran marşrutu ilə Ermənistana silah göndərməsini unutmamışıq. Deməli, İran bu gün Qərb silahlarının İrəvana tədarükü üçün tranzit ölkə statusunda çıxış edir. Yəni, Tehran bu davranışı ilə NATO-nun bu ölkədəki mövqelərinin möhkəmlənməsinə töhfə verir. Bəlkə onun gizli niyyəti Ermənistanı regionda Qərbin "alınmaz qalasına" çevirməkdir? İndi İİR rəhbərliyi hansı haqla "müsəlman həmrəyliyi"nin xarici siyasətinin əsas dəyər prinsipi olduğunu bəyan edə bilər? Azərbaycan bu mərhələni bir dəfə keçib. Həm torpaqlarımızın 30 illik işğalı dövründə, həm də 44 günlük müharibənin gedişində.

Təəssüf ki, Tehranın Azərbaycana qarşı yaxın qonşuluqdan uzaq, qeyri-dost addımları bununla bitmir. Güvəndiyimiz mötəbər mənbələri hərtərəfli araşdırmadan sonra İran və Ermənistanın 500 milyon dollarlıq gizli silah müqaviləsi imzaladığı barədə məlumatın həqiqiliyini təsdiqləyiblər. Bu barədə ilk məlumatı "İran İnternational" yayınlamışdı. Ermənistanla silah sövdələşməsinə gedən İran bu hərəkəti ilə yenə azərbaycanlıların qanı üzərindən pul qazanmağa üstünlük verdi. Görünür, bəzi ölkələrin davranışı insanların xarakteri kimi dəyişməz qalır.

Sonda onu da qeyd etməliyik ki, "Caliber.az" məqaləsində göstərdiyi bütün məlumatların faktiki təsdiqi olduğuna zəmanət verir. ABŞ Hərbi Hava Qüvvələrinə məxsus 2 hərbi-nəqliyyat təyyarəsinin İrəvanın "Zvartnots" hava limanına enməsi barədə xəbərdə olduğu kimi, İran və onun hüdudlarından kənarda yerləşən müvafiq liman və hava limanlarına aid bütün sübutlar məqamı gələndə ictimaiyyətin diqqətinə çatdırılacaq.

Bu gün Ermənistana Qərb markalı silahlar verməklə, guya, "regionda hərbi balansı bərpa etməyi" düşünən ölkələr Qafqazda sülhü yaxınlaşdırmır, əksinə, uzun illər davam edən Ermənistan–Azərbaycan qarşıdurmasının yeni mərhələsini alovlandırmağa səbəbkar olurlar. Onlar revanşizm azarından qurtulmamış Ermənistanı silahlandırmaqla regionda gələcək faciələrə, eləcə də erməni dövlətçiliyinin zorən ləğvinə görə təkcə cinayət deyil, həm də siyasi və tarixi məsuliyyət boyunduruğuna girmiş olacaqlar.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyləri



**Rasim MUSABƏYOV,**
**politoloq**

Düşünürəm ki, Azərbaycanın İranla bağlı heç bir illüziyası olmamalıdır. İran dövlətinin başında başqa millətdən olan şəxs dura bilər. Amma mahiyyət dəyişməyəcək. Və bu rejimin dünyəvi, sivil, böyük savaşdan qalib çıxan güclü Azərbaycanı gözü götürmür. Bundan sonra da götürməyəcək. Bakı bütün vasitələrdən istifadə edərək Tehranla qonşuluq münasibətlərini düşmənçiliyə çevirməməyə çalışır. Fəqət, İranın Azərbaycana qucaq açacağını, özünü qardaş kimi aparacağını düşünmək sadəlövhlük olardı. Dediyim kimi, bu cür illüziyalara qapılmamalıyıq.

Həmin silahlar Ermənistana İrandan savayı, Gürcüstandan da daşına bilərdi. İran üzərindən daşınması onu göstərir ki, Gürcüstan öz ərazisindən Ermənistana silah aparılmasına icazə vermir. Bu, özlüyündə müsbət haldır. İrana gəldikdə, hesab edirəm ki, narazılığımızı rəsmi qaydada diqqətə çatdırmalıyıq. Həm də izah etməliyik ki, belə davranış Tehranın elan etdiyi "müsəlman həmrəyliyi" ilə bir araya sığmır. Əgər İranın Azərbaycana hansısa iradları varsa, bu zaman hərəkətlərində ciddi korrektələr etməlidir. Əks-təqdirdə bunun adı ikiüzlülükdür və bu, Azərbaycan üçün qəbulolunmaz sayılır.



**Fərhad MƏMMƏDOV,**
**siyasi şərhçi**

Ermənistanın silahlandırılması ilə bağlı yayılan son məlumatlar, əlbəttə ki, İran–Azərbaycan münasibətlərinə kölgə salır. Ona görə ki, rəsmi Bakı bu ilin əvvəlindən etibarən Tehrana tərəf müsbət addımlar atılıb. Ümid edilirdi ki, İranla münasibətlər yenidən pozitiv və konstruktiv məcraya yönələcək. Lakin, təəssüflər olsun ki, rəsmi Tehranın Ermənistan istiqamətində atdığı addımlar ümumi ab-havaya, o cümlədən ikitərəfli manasibətlərə zərbə vurduğu kimi, eyni zamanda Cənubi Qafqaz bölgəsində mövcud vəziyyəti gərginləşdirir.

Hesab edirik ki, İran rəhbərliyi tərəfindən atılan addımlar, hansı səbəbdən olursa-olsun, rəsmi Tehranın Ermənistana silah daşınmasında tranzit ölkə rolunu oynamasına haqq qazandıra bilməz. Bu fakt Azərbaycan–İran münasibətlərində ciddi fəsadlara gətirib çıxara bilər. İranın yeni rəhbərliyi bunu mütləq nəzərə almalıdır.

---

# Oskanyan keçmişdə ilişib qalıb

**(əvvəli 1-ci səhifədə)**

Sirr deyil ki, Ermənistanda müəyyən dairələr, müxtəlif siyasətçilər xunta rejiminə dəstək göstərirlər. Bu sırada ölkəyə 20 il rəhbərlik edən Qarabağ klanının nümayəndələri xüsusi seçilirlər. Belələrindən biri də 10 il (1998-2008-ci illərdə) Ermənistanın xarici işlər naziri olmuş Vardan Oskanyandır. Sabiq nazir Qarabağ məsələsi ilə bağlı çox canfəşanlıq edir. O, "Artsax üzrə beynəlxalq komitə" adlanan qondarma qurum yaradıb və vaxtaşırı bəyanatlar verir. Ermənistanın "Aparaj" qəzeti "Artsax respublikasının qanunverici və icra hakimiyyəti orqanları"nın nümayəndələrinin avqustun 21-də "Artsax üzrə beynəlxalq komitə"nin üzvləri ilə görüşdüklərinə dair məlumat yayıb. Komitə üzvləri hesabat məruzəsi ilə çıxış edərək, görülən "işlərdən" dəm vurublar. Onlar beynəlxalq strukturların nümayəndələri ilə bütün görüşlərin alqışlanmasını vacib sayaraq, təmasda olduqları şəxslərin "Artsax"ın mövqeyini dinləməyə hazır olduqlarını bildiriblər.

Komitənin əlaqələndiricisi V.Oskanyanın sözlərinə görə, qurumun təmsilçiləri xaricdə erməni siyasi xadimləri və müxtəlif beynəlxalq strukturların nümayəndələri, o cümlədən Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Tovio Klaar da daxil olmaqla, onlarla şəxslə görüşlər keçirib. Görüşlərin əsasında "Artsax xalqı"nın hüquqlarının müdafiəsi, eləcə də onların beynəlxalq təminatlar və öz evlərində təhlükəsiz, etibarlı və ləyaqətlə yaşamaq hüququ ilə kollektiv şəkildə geri qayıtması üçün müdafiəyə və buna cəhd göstərilməsi dayanıb. Qeyd edək ki, qondarma komitə "Artsax parlamenti" tərəfindən yaradılıb, Qurum "Artsax xalqı"nın kollektiv şəkildə qayıtması və onların hüquqlarının müdafiəsi məsələləri ilə məşğul olmaq yönümlü çağırış səsləndirib.

Ümumən, V.Oskanyanın son vaxtlar aktiv fəaliyyətə keçməsi diqqətdən yayınmır. Əvvəla, onu qeyd edək ki, Oskanyan diplomat olmasına, bioqrafiyasında nüfuzlu Taft və Harvard kimi universitetləri bitirməsinin qeyd edilməsinə baxmayaraq, son vaxtlar naşılıq və geridəqalmışlıq nümayiş etdirir. Bu onun leksikonundan, üslubundan bəllidir. Vardanın fikirləri ilə tanışlıq adamda belə təəssürat yaradır ki, sanki bu məxluq köhnə əyyamdadır. Özünü hələ də xarici işlər naziri vəzifəsində çalışırmış kimi aparır. Hələ də yazılarında, xüsusilə "Mediamaks" saytı üçün yazdığı və öz aləmində vəziyyətdən çıxış yolları göstərdiyi köşələrində 90-cı illərin sonu - 2000-ci illərin əvvəllərində tez-tez işlənən "paket həll", "ümumi dövlət", "Madrid prinsipləri", "ATƏT-in Minsk qrupu" kimi arxaik sözlərdən istifadə edir. Hiss olunur ki, Oskanyan nazir olduğu, Ermənistanın mövqelərinin nisbətən güclü olduğu dövrlərin xiffətini çəkir. Bu adam "bəlkə də qaytardılar" eşqi ilə yaşayır. Hələ də Azərbaycana təzyiq göstərmək yolu ilə hansısa uğur qazana biləcəklərini düşünür. Onun Ermənistanda və xaricdə keçirdiyi görüşlərin qayəsində də bu dayanır.



Ancaq Oskanyan başa düşmür ki, 2020-ci ilin Vətən müharibəsindən, xüsusilə ötən il keçirilən antiterror tədbirlərindən sonra bölgədə tamamilə yeni reallıqlar formalaşıb. Artıq Azərbaycan bölgədə söz sahibi olan, özünün maraqlarını qorumağa qadir ölkədir. Sabiq nazir ölkəmizin qalib tərəf kimi Ermənistana barışıq əlini uzatdığını nəzərə almır. O, sülh danışıqlarının aparılması üçün beynəlxalq hüquqa uyğun 5 maddəlik prinsipləri təqdim edir.

Rəsmi Bakı hətta regional kommunikasiyaların açılmasını nəzərdə tutan müddəanın da sülh danışıqlarından sonraya saxlanılmasına razılıq verib. Oskanyan kimilər isə öz mövqeləri ilə danışıqlarda tormozlayıcı təsir göstərirlər. Görünür, onlar ölkələri üçün yetişmiş tarixi şəraitin əldən çıxmaq üzrə olduğunun fərqinə varmırlar.

Sabiq nazirin hər addımbaşı "Artsax xalqı" məfhumundan istifadə etməsi isə növbəti qaragüruhluq və necə deyərlər, gözə kül üfürmək cəhdidir. Heç kəs üçün sirr deyil ki, "Artsax xalqı" deyilən bir xalq yoxdur və ola da bilməz. Qarabağda yaşamış ermənilərlə Ermənistanda yaşayan ermənilər arasında hansısa fərq yoxdur. Qondarma "Artsax xalqı" məfhumunu 1980-ci illərin sonlarında özlərini erməni xalqının başbilənləri hesab edənlər ortaya atmışdılar. Onlar bütün dünyanı belə bir toplumun mövcud olduğuna inandırmaq istəyirdilər. Məqsəd də bundan ibarət idi ki, Qarabağ ermənilərinin "öz müqəddəratlarını təyin etmələrinə" nail olsunlar. Yəni, separatçı əməllərə haqq qazandırmağa. Amma müdrik atalarımız yaxşı deyiblər: Yalan ayaq tutar, amma yeriməz. Ermənilərin "Artsax xalqı" yalanına da onların özlərindən və xarici havadarlarından başqa heç kim inanmadı.

Qarabağ ermənilərinin geri qayıtmaları hüququna gəldikdə, Oskanyana xatırlatmaq istərdik ki, Bakı bununla bağlı mövqeyini ilk gündən bəyan edib. Ölkəmiz lap əvvəldən onların ərazidən köç etmələrinin əleyhinə olub. İndi isə biz yalnız Qarabağda dünyaya gəlmiş erməni əsilli şəxslərin dövlətimizin hakimiyyət orqanlarına və qanunlarına sadiq olacaqları təqdirdə, Azərbaycana qayıdışını leqallaşdırmaqla bağlı fərdi müraciətlərinə baxmağa hazırıq. Oskanyan dərk etməlidir ki, Azərbaycan bu mövzunu nə Ermənistanla, nə də hansısa xarici aktorla müzakirə etməyəcək.

Yeri gəlmişkən, qeyd edək ki, Oskanyanın bədnam əməllərinə Qərbi Azərbaycan İcması da münasibət bildirib. İcmanın yaydığı bəyanatda deyilir ki, son dövrlər bir sıra Qərb dairələri, o cümlədən Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi Tovio Klaar tarixin zibilliyinə göndərilmiş separatçı meylləri yenidən dirçəltməyə çalışan ünsürlərlə təmaslarını aktivləşdiriblər. Yayılmış məlumatlara görə, Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyan bu yaxınlarda Tovio Klaar və bəzi digər Qərb dairələrinə mənsub şəxslərlə görüşlər keçirib.

İcma xatırladıb ki, Oskanyan qondarma "dağlıq qarabağ respublikasının" mövcud olmayan "parlamenti" tərəfindən Azərbaycanın ərazi bütövlüyü əleyhinə fəaliyyət üçün yaradılmış hansısa "komitə"nin sədridir. Qərb dairələrinin Oskanyan kimiləri ilə təmasları siyasi riyakarlığın bariz nümunəsi olmaqla, Azərbaycan əleyhinə yeni gərginlik mənbəyi yaratmağa xidmət edir.

Bəyanatda, həmçinin deyilir ki, T.Klaarın Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə qarşı çıxmayan Qərbi Azərbaycan İcması ilə təmaslardan qaçdığı halda, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü açıq-aşkar təhdid edən, Xocalı qatili, irqçi Robert Koçaryanın prezident olduğu dövrdə xarici işlər naziri olmuş, reallıqdan tamamən uzaq düşmüş, populist Vardan Oskanyan ilə görüşməsi anlaşılmır. Bildirilib ki, militarist gündəliyə malik qondarma "qurumlar"ın, V.Oskanyan ağılda olanların başçılıq etdiyi hansısa "komitə"nin Ermənistan ərazisində rahat fəaliyyət göstərməsi, sürətlə silahlanan bu ölkənin Azərbaycanla sülhdə maraqlı olmadığını və revanşizm mövqeyindən çıxış etdiyini göstərir. Ermənistan sözdə sülhdən danışıb, reallıqda isə Okampo və Oskanyan kimi ünsürlərlə işləyib vəziyyəti gərginləşdirən xəttindən əl çəkməlidir.

***Səxavət HƏMİD***
***XQ***



# Milli Məclisə seçkilərə 8 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



## 2 min 471 məntəqədə əlillər üçün pandus quraşdırılıb



**"Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında MSK sədri Məzahir Pənahov deyib.**

Onun sözlərinə görə, MSK əlilliyi olan və bu kateqoriyaya daxil seçicilərin hamısını məntəqələrə dəvət edir. Onların siyahısının hazır olduğunu və səs verəcəkləri məntəqələrdə xüsusi şəraitin yaradıldığını diqqətə çatdıran M.Pənahov sözlərinə onu da əlavə edib ki, görmə qabiliyyətində problemi olan seçicilər üçün "Brayl" əlifbası ilə trafaret çap edilib və bütün seçki dairələrinə göndərilib.

## Füzulidə seçkiyə hazırlıq



**"ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) müşahidəçiləri 84 saylı Füzuli seçki dairəsində olublar. Onlar seçki məntəqələrinə baş çəkib, seçkiyə hazırlıq prosesini izləyiblər. Heç bir neqativ hal qeydə alınmayıb, hər şey qanunvericiliyə uyğun şəkildə həyata keçirilir. Dairədə qeydiyyatdan keçən 1211 yerli müşahidəçi də səsvermə prosesini izləmək imkanı qazanıb".**

Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında 84 saylı Füzuli DSK-nın sədri Yavər Məmmədov deyib. O bildirib ki, dairə üzrə qeydiyyatda olan 54 min 246 seçici Milli Məclisə seçkilərdə 78 məntəqədə səsvermə hüququndan istifadə edə biləcək. Səsvermə hüququndan ilk dəfə istifadə edəcək 583 seçici var: "Seçkinin şəffaf şəkildə keçirilməsi üçün qanunvericiliyə uyğun şəkildə bütün şərait yaradılıb. Dairədə 8 namizəd mübarizə aparır, onların seçkiqabağı təşviqat kampaniyası davam edir. Namizədlər təşviqat materiallarını məntəqələrdə quraşdırılmış lövhələrə asır, o cümlədən, qapalı və açıq görüş yerlərində seçicilərlə görüşürlər", - deyən DSK sədri 7 seçki məntəqəsində veb-kameranın, 11 məntəqədə isə pandusların quraşdırıldığını da qeyd edib.

## Sənət adamları səsvermə gününü gözləyirlər



**Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında tanınmış aktrisa, kinoşünas, Xalq artisti Həmidə Ömərova söyləyib.**

O, seçkilərin yalnız siyasi müstəvidə əhəmiyyətli olmadığını vurğulayıb: "Bu, həm də milli mədəniyyətin, o cümlədən kino sənətinin inkişafına təkan verən hadisədir. Biz sənət adamları olaraq, yeni formalaşacaq parlamentdən Azərbaycan kino sənətinin, bütövlükdə, mədəniyyətin inkişafına yeni nəfəs verə biləcək qanunlar gözləyirik. Əlbəttə ki, sentyabrın 1-də səsverməyə gedib bir vətəndaş kimi seçki prosesinə öz töhfəmizi verəcəyik", - deyən H.Ömərova əlavə edib ki, kino sənəti hər bir xalqın özünüifadə vasitəsidir. Kino cameəsi bu sahədə yeni layihələrə, kreativ yanaşmalara, dövlət dəstəyinə ehtiyac duyur.

## Seçki bülletenləri hazırdır



**Növbədənkənar parlament seçkiləri ilə əlaqədar seçki bülletenlərinin hazırlanması prosesi başa çatıb.**

Bu barədə məlumat yayan "Seçki 2024" Müstəqil Media Mərkəzi onu da bildirir ki, mövcud qaydada Mərkəzi Seçki Komissiyasının "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"nda öz əksini tapıb.

Xatırladaq ki, qanunvericiliyə əsasən, seçki bülletenlərinin hazırlanması prosesi səsvermə gününə ən azı 10 gün qalanadək yekunlaşmalıdır. Təqvim Planında prosesin avqustun 22-dək başa çatdırılması nəzərdə tutulub.

## Seçkilərə beynəlxalq diqqət yüksəkdir

**"Seçki qanunvericiliyi, seçki prosesini təşkil edən komissiyaların fəaliyyəti və seçki təcrübəsi səsvermə prosesinin demokratik və şəffaf keçirilməsini şərtləndirən amillərdəndir. Azərbaycanda Seçki Məcəlləsi, Mərkəzi Seçki Komissiyasının (MSK) və alt komissiyaların fəaliyyəti, eləcə də təcrübəsi Milli Məclisə seçkilərin beynəlxalq standartlara uyğun baş tutacağına zəmin yaradır". Bunu "XQ"yə açıqlamasında Siyasi Portretologiya və Siyasi Analizlər Mərkəzinin rəhbəri Adıgözəl Məmmədov deyib.**



A.Məmmədov bildirib ki, 2003-cü ildə qəbul edilən Seçki Məcəlləsi seçicilərin və seçilənlərin hüquqlarını tam təmin edir: "Mövcud seçki qanunvericiliyi demokratik seçkinin əsas bazasını təşkil edir. Fəaliyyətini qanunvericiliyə uyğun quran MSK və alt komissiyalar bugünədək keçirilən seçkilərdə böyük təcrübə qazanıblar. Ümumiyyətlə, Azərbaycanın seçki təcrübəsi dünyanın bir çox ölkələri üçün nümunə hesab oluna bilər".

Mərkəz rəhbəri onu da deyib ki, seçkiqabağı təşviqat kampaniyasında qeydə alınmış namizədlərə bərabər şəraitin yaradılması seçkilərin tam şəffaf keçiriləcəyini şərtləndirən amillərdən biridir: "Beynəlxalq və yerli müşahidəçilərin qeydiyyatı prosesi başa çatmaq üzrədir. Müşahidəçilərin sayının çoxluğu seçkilərə həm beynəlxalq, həm daxili diqqətin artmasını göstərir. Azərbaycanın seçki demokratiyasını nümayiş etdirən amillərdən biri də səsvermə prosesinin şəffaf keçirilməsi məqsədilə müşahidəçilərə müstəsna hüquqların verilməsidir. Bütün bunlar Milli Məclisə seçkilərdə demokratik prinsiplərin prioritet olacağını və bu seçkilərin beynəlxalq müstəvidə seçki nümunələrindən birinə çevriləcəyini deməyə əsas verir".

## Xarici müşahidəçilər Zaqatalada



**"112 saylı Zaqatala seçki dairəsinin inzibati ərazisində 43 seçki məntəqəsi fəaliyyət göstərir. Həmin 43 seçki məntəqə üzrə seçicilərin ümumi sayı 50 min 225 nəfərdir".**

Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında 112 saylı Zaqatala DSK-nın sədri Fikrət Mustafayev deyib. Onun sözlərinə görə, seçki dairəsi üzrə 281 şəxs ilk dəfə səsvermədə iştirak edəcək: "Dairənin ən yaşlı seçicisi isə Yegiyan kənd sakini 101 yaşlı Gülməmmədova Ribeydə Murad qızıdır. 1923-cü il təvəllüdlü R.Gülməmmədovanın adı 33 saylı məntəqədə seçicilərin siyahısındadır".

DSK sədri qeyd edib ki, komissiya üzvləri üçün mərhələli şəkildə treninqlər təşkil olunub, həmin treninqlərdə MSK üzvləri də iştirak ediblər: "Seçki məntəqələrinin təchizatı ən yüksək səviyyədədir. Səsvermə prosesi ilə bağlı maarifləndirici materiallar artıq qanunvericiliklə müəyyən olunan yerlərə vurulub. Beynəlxalq müşahidəçilər iki dəfə DSK-da olublar. 112 saylı seçki dairəsinində 7 nəfər imza vərəqəsi götürmüşdü və hamısının namizədliyi qeydə alınıb".

# Seçki xəbərləri

### Barmaq mütləq mürəkkəblənməlidir



**Əgər vətəndaş barmağına xüsusi mürəkkəbin vurulmasına razılaşmasa, qanunvericilkdə ona qarşı hansı tədbirin görülməsi nəzərdə tutulub?**

"Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının dünənki iclasında sədr Məzahir Pənahov bu məsələyə aydınlıq gətirib. O, həmin vətəndaşlara seçki bülleteni verilməyəcəyini və onların dərhal məntəqəni tərk etməli olduqlarını bildirib: "Amma onlara qarşı heç kim məcburetmə tətbiq edə bilməz".

### Bülletenlər DSK-lara aparılır



**Bu gündən seçki bülletenlərinin Mərkəzi Seçki Komissiyasından (MSK) dairə seçki komissiyalarına verilməsinə başlanılıb. "Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, bu barədə MSK-nın iclasında məlumat verilib.**

"Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"na əsasən, seçki bülletenlərinin hazırlanması prosesi avqustun 22-dək başa çatdırılıb. Seçki bülletenlərinin MSK-dan DSK-lara verilməsi isə avqustun 27-dək yekunlaşmalıdır.

### Veb-kameralarla izləmə sərbəstdir

**"Seçki günü proseslərin birbaşa izlənilməsi, keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin olunması üçün texniki parametrləri gücləndirilmiş və daha da təkmilləşdirilmiş veb-kameralardan istifadə olunur".**



"Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, bunu MSK-nın iclasında sədr müavini Rövzət Qasımov deyib. O bildirib ki, veb-kameralar vasitəsilə hər kəs – istər ölkə daxilində, istərsə də ölkə xaricindən seçki günü MSK-nın internet səhifəsinə daxil olmaqla, heç bir qeydiyyat tələb olunmadan məntəqələrdəki bütün prosesləri yüksək görüntü effekti ilə fasiləsiz müşahidə edə biləcək.

### Qarabağda səs vermək ikiqat şərəfdir



**"Milli Məclisə seçkilər Azərbaycan xalqı üçün xüsusi əhəmiyyət kəsb edir. Bu, azad olunmuş torpaqlarda, Qarabağda reallaşdırılacaq ikinci mühüm seçki prosesi olacaq".**

Bu fikirləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri Hafiz Səfixanov deyib. O qeyd edib ki, Qarabağa seçki prosesinin qayıtması hər kəsi sevindirir: "Keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə səs verməsi tarixi hadisədir. Bu, həmin ərazilərdən Milli Məclisə seçiləcək şəxslər üçün ikiqat məsuliyyətdir. Seçkilər xalqımız, dövlətimiz üçün uğurlu olacaq".

*Səhifəni hazırladı:*
*İ.HƏSƏNQALA*
*XQ*

# Vətən müharibəsinin fəlsəfəsi

## “Savaş” anlayışı və döyüş düşüncəsi

**I MƏQALƏ**

**Müharibə Vətəni qoruyanlar üçün aydınlığa çıxmış borcdur.**

**Gi de MOPASSAN**

### Müharibəyə fəlsəfi yanaşmalar

Müasir dövrdə hər bir insan üçün “müharibə” sözü aydın, mənası konkret olan və silahlı toqquşma ilə əlaqəli hadisədir. İnsanların böyük əksəriyyəti müharibə haqqında bundan o tərəfi düşünmürlər və əslində, düşünməyə də ehtiyacları yoxdur. Bundan başqa, sadə insanlar üçün hər bir müharibə dağıntıdır, ayrılıqdır, şikəstlikdir və ölümdür. Bunlar adi insan şüurunda müharibə haqqında təcrübədən gələn ümumi təsəvvürlərdir.

Lakin tarixin elə bir dönəmi yoxdur ki, müharibələr olmasın. Bu anlamda müharibə, ümumiyyətlə, bəşəriyyətin mövcudluğunun universal faktorlarından biri kimi görünür. Əlbəttə, tam humanist və sırf etik, xeyirxah insan şüuru bu fikrə dərhal etiraz edir və müharibəsiz həyatın daha gözəl, təbii və faydalı olduğu tezisini müdafiə edir. Tam razılaşırıq! Lakin bəşəriyyətin mövcud olduğu müddətdə bu cür düşüncənin xoş arzular və istəklərdən, humanist niyyətlərdən o tərəfə keçdiyini təsdiq edən faktlar da yoxdur.

Buna görə də, müharibənin fəlsəfəsinin yaranması tamamilə təbii və zəruri hadisədir. Müharibə fəlsəfəsi fəlsəfənin bir sahəsidir. Burada müharibənin səbəbləri, müharibə ilə insan təbiəti arasında qarşılıqlı əlaqələr və müharibənin etikası öyrənilir.

Bəli, müharibəni filosoflar və alimlərin öyrənməsi zərurətdir. Əlbəttə, müdrik, ağıllı, humansit insanlar bir çox müharibənin qarşısını almaqla böyük fayda vermişlər, dağıntıların, ölümlərin önünü kəsmişlər.

Misal üçün, Makedoniyalı İsgəndərin Bərdə hökmdarı Nüşabənin müdrik, ağıllı və humanist arqumentləri qarşısında geri çəkilərək müharibə etmədən Azərbaycandan uzaqlaşması şanlı və ibrətverici tarixdir.

Ancaq tarixdə elə eybəcər, insanlığın qəbul etmədiyi, şərçil, böhtançı, təcavüzkar, iblisanə hərəkət edən fərdlər, qruplar, cəmiyyətlər və hətta ölkələr olur ki, bunun qarşısını kəsmək ciddi zərurətə çevrilir. Çünki, bütövlükdə, bəşəriyyəti, insanlığı və həyatı o cür parazitlərdən təmizləməklə insanlığı yaşatmağa davam etmək imkanı yaranır. Bu yolu göstərən dəyərlərdən biri də fəlsəfə və elmdir.

Nümunə. Keçən əsrdə Avropa iki dəfə Dünya müharibəsinə sürükləndi. Hər ikisinin motivi başqasının ərazilərini zəbt etmək, onu boyun əyməyə məcbur etmək, öz hegemonluğuna hüquqi əsas yaratmaq olmuşdur. Bu xislətin on milyonlarla insanın məhv olmasına aparıb çıxardığını indi kiçik yaşlı uşaqlar da dərsliklərdən bilirlər. Ancaq bəziləri üçün bu fəlakət yenə də ibrət dərsi olmamışdır. Bununla yanaşı, Avropadakı həmin böyük müharibələri fəlsəfi əsərlərdən öyrənmişlər və bu proses davam edir. Bundan başqa, fransızlar Fransa inqilablarını fəlsəfi, tarixi, filoloji, sosioloji, kulturoloji və s. aspektlərdə hələ də öyrənməkdə davam edirlər. Yəni müharibə elə bir fenomendir ki, eyni zamanda, həm tarixdir, həm də müasirlik!

### Müharibə və yaddaş

Azərbaycanlıların da dövlətçilik tarixi və ənənəsi kontekstində aparmağa məcbur olduğu müharibələri, xüsusən 44 günlük Vətən müharibəsini fəlsəfi araşdırması çox aktualdır. Bu, həm özümüzü tarixi rakursda adekvat dərk etmək, həm də II Qarabağ savaşının həqiqi fəlsəfi dərkinə nail olmaq üçün zəruridir.

Məsələn, Vətən müharibəsinin tarixi yaddaşımızda yerini və rolunu fəlsəfsiz müəyyən etmək imkansızdır. Tarixi yaddaş kontekstində Vətən müharibəsinin anlamı isə zəngindir. Hətta onun kökünün keçən əsrin əvvəllərinə gedib çıxdığını deyə bilərik. Bu məqamı bir qədər də konkretləşdirək.

XX əsrin əvvəllərində ermənilərin səbəbsiz olaraq türk-müsəlman qövmünə qarşı törətdikləri saysız-hesabsız terrorlar unudulmur. Həmin terrorlarda həyatını itirən milyonlarla insanın tapdalanmış haqqını kimlər və necə bərpa edə bilərlər? Bütövlükdə, bu məsələnin qoyuluşu üçün onun fəlsəfi-elmi-hüquqi təqdimatı gərəkdir. Yəni, öncə biz problemi lazımi səviyyədə araşdırıb, təqdim etməli və bu əsasda dünya miqyasında ona uyğun fəaliyyət göstərməliyik. Deməli, dünyanın qəbul edəcəyi, faydalı və universal ola biləcək üsul tapmaq gərəkdir.

Bunun fonunda XX əsrin ikinci onilliyində yaradılmış Azərbaycan Demokratik Respublikasının ona qarşı aparılan işğalçı müharibələr kontekstində fəlsəfi dərki dərinləşməli və genişlənməlidir. O cümlədən, həmin dövrdə ADR uğurlu özünümüdafiə, ərazini bərpaedici, hüquqlarını qoruyucu uğurlu Vətən müharibəsi apara bilsəydi, bəlkə də II Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Bu acı təcrübəmizin Zəfər savaşımızın fəlsəfi kontekstində dərki də aktualdır.

### Böyük Qurtuluş və Qayıdış yolu

Sonra. XX əsrin 90-cı illərində Cənubi Qafqazda azərbaycanlılara qarşı törədilən terror aktlarını bir anlığa xatırlayaq. O cümlədən, Bakıda bu sətirlərin müəllifi də məlum metro hadisəsində həyatını itirmək təhlükəsi ilə üz-üzə gəlmişdi. O anda metroda olan və heç bir şeydən xəbəri olmayan Bakı sakinləri dəhşətli terrorun qurbanı oldular. Hər birimiz partlayış və yanğının qurbanına çevrildik. Bir çoxumuzun (onların sırasında uşaq, qadın, gənc, qoca ... da vardı) həyatı orda terror qurbanı kimi sonlandı! Ədalət naminə deyin, bunu görən və yaşayan insanın terroru törədənlər haqqında adi və fəlsəfi düşüncələri necə ola bilər?



Bunları mühaşidə edib humanizm dərsi vermək istəyənlərlə terrorun, müharibənin amansız reallığını yaşamış iştirakçı insanın müharibəyə baxışları arasında fərq də buradan qaynaqlanır.

Bu anlamda həm də, həmin insanlar üçün (terror qurbanları üçün) Vətən müharibəsi real təcrübənin verdiyi dərslərdən çıxarılan nəticədir. Yəni Vətən savaşı, sözün həqiqi mənasında, terrordan, ölümdən, itkidən, ləyaqətsizlikdən, anaların və bacıların qınaqıcı baxışlarından, oğulların qarşısında boynubüküklükdən, erməni sırtıqlığı, həyasızlığı, dayanmayan təhqirləri və sataşmalarından, qardaş və dost xalqların ittihamedici baxışlarından qurtuluş meydanı idi! Vətən müharibəsi bizim müasir tarixi yaddaşımızın ləyaqət və uğur meydanı, Zəfər bayrağının sancıldığı mənəvi, psixoloji məkandır!

Vətən müharibəsi Qurtuluş olduğu qədər də, Qayıdışdır! İşğaldan Qurtuluşdur! Böyük Azərbaycan dövlətçiliyi ənənəsinə, azadlıq aşiqliyinə, müstəqillik canatmasına və konkret tarixi torpaqlara Böyük Qayıdışın ilk müjdəsi, sədası, nəfəsi və ruhudur!

Tarixi torpaqların Qurtuluşu ilə onlara Qayıdışın fəlsəfəsi arasında bağlantını, tarixi keçidi məhz Vətən müharibəsi bərpa etdi.

Vətən müharibəsi müasir dövlətçiliyimizin əsas prinsiplərinin döyüş meydanında sınağı nümunəsi oldu. 44 gündə Azərbaycan rəhbərliyinin hansı tarixi-siyasi və hərbi-mənəvi zəfər qazandığının fəlsəfi anlamı əvəzedilməzdir. Bunlar aydınlaşmalı və milyonlara çatdırılmalıdır!

### Bir neçə sual

Hər bir xalqın nümayəndələrinin oxşar faktları və təcrübələri mövcuddur. Buna görə də “müharibə nədir?”, “müharibəsiz olmazmı?”, “ümumiyyətlə, müharibəni fəlsəfi necə izah və təsnif etmək olar?” kimi fundamental suallar meydana gəlir. Onlara cavablarla hələ də yekdil mövqe yoxdur. Lakin bundan müharibənin fəlsəfəsini yaratmaq problemi zərrə qədər də aktuallığını itirmir. Xüsusilə, haqsızlığ görmüş xalqlar üçün bu məsələ elmi, nəzəri, psixoloji və real həyatı yaşamaq baxımından daha da aktualdır. Cəmiyyət apardığı savaşın əsl mənasını anlamalı, məqsəd və məramı haqqında düzgün təsəvvürə malik olmalıdır ki, özünə inamını saxlasın, real sülhsevərliklə saxta mərhəmət, real barışla qondarma və hiyləgər tələ qurmaq arasında fərqi vaxtında görə bilsin ki, bir də o oyunlara toplum olaraq düşməsin.

Bütün bunlar bəşəriyyət üçün müharibənin adi təcrübə kimi təsəvvürü ilə yanaşı, onun fəlsəfi və elmi dərkini də əbədi olaraq aktual etmişdir. Müharibəni ensiklopediyalarda ümumi olaraq belə tərif edirlər: Müharibə dövlətlər və dövlət qrupları arasında silahlı qüvvələrin geniş tətbiq edildiyi toqquşma prosesidir. Bizim üçün bu tərif yetərlidir, çünki müharibənin həm iştirakçılarını, həm məzmun və məqsədini və həm də bəzən həyatında tutduğu yeri lakonik ifadə edir. Müharibənin fəlsəfi anlamı da müharibənin özü qədər qədimdir.

### Filosoflar müharibə haqqında

Qədim yunan filosofları (burada biz Şərqə müraciət etmirik) müharibəni ədalətli və ədalətsiz kateqoriyalarına bölmüşlər. Aristotel ədalətli müharibəni (“Politika”da yazır) iki qrupa ayırırdı. Birinci qrupa biz öz dövlətini qorumaq uğrunda aparılan müharibəni aid edirdi. İkinci qrupa inkişaf etməmiş dövlət üzərində nəzarət məqsədi daşıyan müharibəni aid edirdi (ikinci qrup müasir mərhələdə ciddi şübhələr oyadır). Ancaq burada Aristotel özünü idarə edə bilməyən dövlətlərin mövcudluğunun faydası olmadığı şərtini qoyur.

XX əsrin sonu XXI əsrin əvvəllərində Frensis Fukuyama sanki Aristotelin bu mövqeyini müdafiə edir və beynəlxalq aləmdə zəif dövlətlərin qeyri-müəyyənlik, terror, təhdid, cinayət mənbəyi olduğu fikrini irəli sürür. Məsələn, Ermənistan zəif dövlət kimi sadalanan həmin keyfiyyətsizliklərin hamısına malikdir. Onun mövcud olmasının dünyaya hansı faydası ola bilər?

Siseron isə Aristotel kimi məsələni geniş götürmür. O hesab edirdi ki, təcavüzkarın dəf edilməsi və cəzalandırılması naminə aparılan müharibə ədalətlidir. Siseron başqa varinatı qəbul etmirdi.

E.Kesariyski zalımın (“tiran”) cilovlanmasına xidmət edən savaşları ədalətli müharibə hesab edirdi.

Müqəddəs Avqustin isə hər bir insan və dövlətin günahsızları zalımdan qorumaq borcunun olduğu tezisinə əsaslanaraq, “ədalətli müharibə” (bella iusta) hesab edirdi. Bu anlamda özünümüdafiə və vurulan ziyanları neytrallaşdırmaq üçün aparılan qisas müharibəsini ədalətli müharibə adlandırırdı. O yazırdı ki, zalımdan günahsızları qorumaq üçün silahdan istifadə etmək ilahi ədaləti pozmur. Çünki Yaradan hər bir insana yaşamaq haqqı vermişdir. Bununla yanaşı, Avqustinə görə, ədalətli müharibəni qanuni dövlət başçısı ədalətli nəticələr naminə apara bilər. Yalnız bu zaman ədalətli müharibənin səbəbləri də ədalətli olur.

Deməli, Avqustinə görə, ədalətli müharibə üç komponentin vəhdətidir: ədalətli səbəb (özünümüdafiə, günahsızların qorunması, vurulan zərəri neytrallaşdırmaq üçün qisas almaq) – qanuni başçı (müasir anlamda, legitim lider) – ədalətli məqsəd (burada ədalətlilik mənəvi dəyər keyfiyyəti ilə hüquqiliyin sintezi kimi başa düşülməlidir). Sonuncu tezisdə məqsədin ədalətli olmasında mənəvi-əxlaqi dəyər aspekti ilə yanaşı, hüququn ödənməsi şərtini qoymağımız çox vacibdir, çünki dövlətlərarası münasibətdə əsas tənzimləmə faktoru hüquqdur və buna görə də liderin məqsədi beynəlxalq hüquqa uyğun gəlirsə, tam mənada ədalətlidir.

Azərbaycanın Vətən müharibəsindəki təcrübəsi bunu tam təsdiq etmişdir. Prezidenti İlham Əliyev II Qarabağ savaşının nəticələrini ümumiləşdirərkən tarixi ədalət (sosial, tarixi, siyasi və mənəvi ədalətlilik) ilə yanaşı, beynəlxalq hüquq normalarının bərpasını (liderin məqsədinin ədalətli olmasını) vurğulamışdır. Deməli, Avqustin Azərbaycanın Vətən müharibəsini dərhal “böyük ədalətli müharibə” kimi qiymətləndirərdi. Lakin onun Qərbdəki xələfləri bu fəlsəfi həqiqəti dərk edə və ya dərk etdiklərini dillərinə gətirmək vicdanına və cəsarətinə malik ola bilmədilər!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Bonayre adasının azadlıq yolu Bakıdan keçir

**Avqustun 22-də Bakıda “Bonayre adasının Bakıdan keçən BMT Baş Assambleyasındakı öz müqəddəratını təyinetmə yolu” mövzusunda beynəlxalq konfrans keçirilib.**



Bakı Təşəbbüs Qrupu (BTQ) və Bonayre İnsan Hüquqları və Dəyişiklik Naminə Hərəkatının birgə təşkilatçılığı ilə baş tutan tədbir Niderlandın müstəmləkəçiliyi altında olan Bonayre adasına həsr edilib.

Konfransda kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan Bonayre xalqının təmsilçiləri, habelə Beliz, Sent-Vinsent və Qrenadin, Surinam, Sent Lüsiya, Böyük Britaniya, Meksika, Niderland və başqa ölkələrin nümayəndələri, BMT və digər beynəlxalq təşkilatların rəsmiləri, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, dekolonizasiya üzrə ekspertlər, tədqiqatçılar iştirak ediblər.

BTQ-nin icraçı direktoru Abbas Abbasov bildirib ki, Bakı Təşəbbüs Qrupu indiyədək beynəlxalq ictimaiyyətin Fransanın müstəmləkəçilik siyasətinin nəticələri ilə bağlı informasiyaya malik olması üçün çox vacib işlər həyata keçirib. “Hesab edirik ki, Bonayre xalqının öz müqəddəratını təyin etmək hüququ əsasdır və buna görə də təmin olunmalıdır”, – deyə moderator qeyd edib.

Məclisdə çıxış edən Bonayre İnsan Hüquqları Təşkilatının prezidenti Davika Bissessar bildirib ki, biz səsimizi gücləndirmək, eyni zamanda, ədalətin, sadəcə, ideal deyil, hamı üçün reallıq olmasını təmin etmək üçün qlobal ictimaiyyətin dəstəyinə və anlayışına inanırıq.

Beynəlxalq konfransın təşkilində dəstəyə görə Bonayre xalqı adından Azərbaycan hökumətinə, Bakı Təşəbbüs Qrupuna, xüsusi qonaqpərvərlik üçün isə xalqımıza təşəkkürünü ifadə edən Boner Dəyişim Hərəkatının yaradıcısı Ceyms Finis Bonayre dilinin Karib regionunda müstəmləkə siyasətindən qurtulmağı bacaran və mövcudluğunu qoruyub saxlayan iki dildən biri olduğunu diqqətə çatdırıb.

Müstəmləkəçilikdən əziyyət çəkən ölkəsinin problemlərindən danışan Bonayrenin nümayəndə heyətinin üzvü, “Radio Vision FM”in rəhbəri Albertico Canqa diqqətə çatdırıb ki, adadakı təhsil sistemi gəncləri o həddə çatdırır ki, onların hamısı təhsil almaq üçün xaricə gedirlər. “Bizim öz bayrağımız, dilimiz olsa da, ondan istifadə edə bilmirik”, – deyə təəssüflənən “Change” hərəkatının həmtəsisçisi Kaile Aranxta Elizabet Fines əcdadları tərəfindən nəsildən-nəslə ötürülən Bonayre dilinin tarixinin XVII əsrə gedib çıxdığını diqqətə çatdırıb.

Əsas hissədən sonra konfrans öz işini “Regional və beynəlxalq dəstəyin səfərbər edilməsi” mövzusunda müzakirələrlə davam etdirib.

Əvvəlcə Bonayre xalqının öz müqəddəratını təyinetmə uğrunda mübarizəsini əks etdirən videoçarx nümayiş olunub. BMT yanında Afrikaəsilli Vətəndaşlar Forumunun üzvü June Soomer, Bonayrenin İnsan Hüquqları üzrə Təşkilatının beynəlxalq siyasət üzrə müşaviri Xorxe Qarsiya Kordoba, Azərbaycan Dillər Universitetinin baş müəllimi Sara Ələsgərova və digərləri çıxış edərək Niderlandın əsarəti altında olan Bonayre xalqının müstəmləkəçilikdən azad olmaq uğrunda apardığı mübarizə, habelə problemin aidiyyəti beynəlxalq təşkilatların gündəliyinə çıxarılması istiqamətində görülən işlər, beynəlxalq hüquqi imkanlar barədə danışıblar.

“Bonayre adasının Bakıdan keçən BMT Baş Assambleyasındakı öz müqəddəratını təyinetmə yolu” mövzusunda keçirilən beynəlxalq konfransın yekununda bəyanat qəbul edilib.

Sənəddə deyilir: “Biz konfrans iştirakçıları olaraq tədbirin təşkilinə görə Bakı Təşəbbüs Qrupuna, səmimi və qonaqpərvər münasibətinə görə isə Azərbaycan xalqına dərin minnətdarlığımızı bildiririk. Bu tədbir əsarət altında olan Bonayre xalqının durumuna həsr olunmuş və maraqlı tərəflərə Niderlandın müstəmləkə siyasətinin fəsadlarını müzakirə etmək üçün geniş imkan yaradıb. Bu siyasət uzunmüddətli perspektivdə Bonayre xalqının gələcəyini və mövcudluğunu ciddi təhlükə altına qoymaqdadır.

Bonayrenin statusu: Bonayre bir vaxtlar Niderland Antil adalarının tərkib hissəsi kimi daxili özünüidarə ilə geniş səlahiyyətlərə malik Niderland müstəmləkə vahidinin bir hissəsi olub. 2010-cu il oktyabrın 10-da Niderland Antil adalarının buraxılmasından sonra Bonayre Niderland hökuməti tərəfindən birtərəfli qaydada qeyri-bərabər hüquqlarla Niderland Konstitusiyasında təsbit edilmiş və muxtariyyəti olmayan bir “dövlət orqanı/qurumu” kimi bu ölkəyə birləşdirilib.

Demoqrafik dəyişikliklər: 2010-2024-cü illər arasında Bonayrenin əhalisi 11 min nəfərdən 25 min nəfərə qədər artıb.

Müqəddəratın təyin edilməsi uğrunda mübarizə - 2015-ci il referendumu: 2015-ci il dekabrın 18-də keçirilmiş referendumda seçicilərin 66 faizi 2010-cu ildən etibarən Bonayredə tətbiq edilən konstitusiya statusunu rədd edib. Bu nəticələr ada parlamentinin nümayəndələri tərəfindən Bonayre xalqının qanuni və hüquqi demokratik qərarı kimi yekdilliklə təsdiqlənib.

Konfrans iştirakçıları bu fürsətdən istifadə edərək bu il mayın 14-16-da Venesuelanın Karakas şəhərində BMT-nin Dekolonizasiya üzrə Xüsusi Komitəsi tərəfindən təşkil olunmuş “Müstəmləkəçiliyin ləğvi üzrə beynəlxalq dördüncü onilliyin tətbiqi, özünüidarədən ərazilərin məqsədlərinə nail olunması və ehtiyaclarının təmin olunması” mövzusunda Karib dənizi regional seminarında Azərbaycan Respublikasının iştirakını alqışlayırıq”.

Bəyanatın nəticə hissəsində Bonayrenin yenidən özünü idarə etməyən ərazi kimi siyahıya alınması ilə bağlı qətnaməyə beynəlxalq dəstəyin göstərilməsi üçün çağırış yer alıb: “Bonayre öz müqəddəratını təyinetmə və özünüidarəetmə hüququnu qorumaq, təmin etmək naminə özünü idarə etməyən ərazi kimi yenidən qeydiyyata alınmasını müdafiə etmək üçün beynəlxalq ictimaiyyətin dəstəyini qazanmağa çalışır. Bu məsələ ilə bağlı qətnamənin Sent-Vinsent və Qrenadinin Baş naziri, Latın Amerikası və Karib Hövzəsi Ölkələri Birliyinin (CELAC) keçmiş prezidenti Ralf Qonsalvesin rəhbərliyi ilə bu il oktyabrın əvvəlində BMT Baş Assambleyasında dekolonizasiya gündəliyinin bir hissəsi olaraq yeddi (7) Karib adası tərəfindən təqdim ediləcəyi gözlənilir.

Biz BMT Baş katibini və təşkilata üzv dövlətləri həmrəylik göstərməyə çağırır, Bonayre xalqının öz müqəddəratını təyinetmə hüququnu müdafiə edən humanitar əhəmiyyətli bu mübarizəni dəstəkləməlməyə, Bonayre məsələsinə dair qətnaməyə həmmüəllif kimi yeddi Karib adasına qoşulmalarını xahiş edirik. Bu qətnamə Bonayrenin BMT-nin özünü idarə etməyən ərazilər siyahısına daxil olunmasını və BMT-nin Dekolonizasiya üzrə Xüsusi Komitəsinin nəzarəti altına alınmasını nəzərdə tutur.

Biz Bonayre xalqı olaraq Qoşulmama Hərəkatı Troykasının üzvü olan Azərbaycanın Prezidenti İlham Əliyevdən, Qoşulmama Hərəkatı ölkələrindən Bonayre xalqının beynəlxalq dekolonizasiya hüququna uyğun olaraq öz müqəddəratını təyinetmə hüququnu dəstəkləməyi, Bonayrenin BMT-nin özünü idarə etməyən ərazilər siyahısına daxil olunması məsələsini qaldırmağı xahiş edirik.

Biz Niderland hökumətini müstəmləkə siyasətindən əl çəkməyə və Bonayrenin BMT-nin özünü idarə etməyən ərazilər siyahısına yenidən daxil olunmasının qarşısını almamağa çağırırıq”.

**XQ**

# Azərbaycan–Özbəkistan iqtisadi əlaqələrində yeni mərhələ

## İlkin olaraq ticarət dövriyyəsi 1 milyard dollara yüksələcək

**Azərbaycan və Özbəkistan prezidentləri İlham Əliyev və Şavkat Mirziyoyevin son illər qarşılıqlı səfərləri ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsinə yeni bir dinamizm gətirib. Dövlət başçılarının dostluq və qarşılıqlı etimad şəraitində keçən görüşləri ikitərəfli əlaqələrin, o cümlədən iqtisadi münasibətlərin inkişafını sürətləndirib, qəbul edilən qərarlar əmtəə dövriyyəsinin artmasına, nəqliyyat və energetika sektorlarında əməkdaşlığın möhkəmlənməsinə geniş imkanlar yaradıb.**

Keçən il Azərbaycan və Özbəkistan arasında 500 milyon dollarlıq investisiya fondunun yaradılmasına dair ikitərəfli saziş imzalanıb. Prezident Ş.Mirziyoyevin Bakıya sonuncu səfəri zamanı isə tərəflər arasında fondun kapitalının artırılması ilə bağlı razılıq əldə edilib. Bundan əlavə, bu il iki ölkənin birgə onlayn ticarət platformasının yaradılması nəzərdə tutulub. Bu platforma Azərbaycan və Özbəkistanın bizneslərinə asanlıqla qarşılıqlı əlaqə qurmağa, ticarət əməliyyatlarını asanlaşdırmağa və birgə investisiya layihələri gerçəkləşdirməyə imkan verəcək. Bu onlayn platformanı işə salmaqla hər iki ölkənin özəl bölməsi uyğun tərəfdaşlar tapacaq və ticarət-iqtisadi əməkdaşlıq üçün yeni imkanlar əldə edəcək. Cari ilin iyul ayında isə Azərbaycan–Özbəkistan Hökumətlərarası Komissiyasının 13-cü iclası zamanı iki ölkə arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsinə dair yekun protokol imzalanıb.

Bütün bunlar ölkələrimiz arasında ticarət dövriyyəsinə müsbət təsir göstərib. Belə ki, 2023-cü ildə ticarət dövriyyəsi 26,5 faiz artaraq 231,6 milyon dollar təşkil edib. Cari ilin yanvar–iyul aylarında isə Azərbaycan ilə Özbəkistan arasında bu göstərici 118,2 milyon dolları ötüb. Hazırda ticarət dövriyyəsinin 1 milyard dollara çatdırılması istiqamətində tədbirlər həyata keçirilir.

Onu da qeyd edək ki, Özbəkistanda Azərbaycan kapitallı 236 müəssisə, o cümlədən 62 müştərək müəssisə, respublikamızda isə 70 Özbəkistan şirkəti fəaliyyət göstərir. Özbəkistan–Azərbaycan birgə investisiya fondu bu artımın stimullaşdırılmasında mühüm rol oynayır. Əməkdaşlıq üçün perspektivli sahələr ipək istehsalı, toxuculuq klasterinin yaradılması, beynəlxalq məktəbin tikintisi və qida istehsalı layihələridir.

Bir sözlə, münasibətlər demək olar ki, həyatın bütün sahələrində özünü qabarıq büruzə verir. Məsələn, dövlətimizin başçısının çıxışlarının birində vurğulandığı kimi, Azərbaycan bərpaolunan enerji sahəsində Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlıdır. Bu ilin may ayında imzalanan "Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu" "yaşıl" enerji sahəsində əməkdaşlıqda ilk addımdır.

Bundan başqa, qarşılıqlı fəaliyyət nəqliyyat-tranzit sahəsində də diqqət çəkir. Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək artırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması istiqamətində reallaşdırılan genişmiqyaslı layihələr, Xəzər dənizində Azərbaycanın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi Orta Dəhlizin praktiki cəhətdən öneminin daha da artırılması bunun bariz ifadəsidir.



Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq Azərbaycanda bir sıra mühüm nəqliyyat-logistika infrastrukturu yaradılıb və ölkəmiz beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunub. Bütün bunlar Azərbaycan vasitəsilə Mərkəzi Asiya ölkələrindən, o cümlədən Özbəkistandan yükdaşımaların həcminin daha da artmasına təkan verir. Prezident İlham Əliyevin 2022-ci ilin iyununda Özbəkistana dövlət səfəri zamanı imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş" bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan və Özbəkistan məişət texnikasının birgə istehsalı sahəsində əməkdaşlıq etməyi planlaşdırır. Birgə istehsal baxımından digər əməkdaşlıq sahəsi Ələt Azad İqtisadi Zonasıdır. Bu, yeni sənaye sahələri yaratmaqda maraqlı olan özbəkistanlı sahibkarlar üçün əlverişli məkandır. Artıq Ələt Azad İqtisadi Zonası ərazisində məişət texnikası və alüminium radiatorların istehsalı üzrə layihələrin hazırlanması və həyata keçirilməsinin fəal mərhələsinə keçilib.

Hər iki ölkənin aparıcı enerji korporasiyaları olan SOCAR və "Özbəkneftqaz" şirkətləri arasında da yüksək səviyyədə əməkdaşlıq münasibətləri mövcuddur. 2023-cü ildə bu qurumlar tərəfindən qaz ticarəti üzrə ixtisaslaşan birgə müəssisə yaradılıb. Bununla bərabər, "Özbəkneftqaz"ın respublikamızda qaz hasilatı layihələrində iştirakı ilə bağlı danışıqlar artıq yekun mərhələdədir.

Azərbaycan ilə Özbəkistan arasında "yaşıl" enerji əməkdaşlığının inkişafı da diqqətdə saxlanılır, hər iki ölkənin "yaşıl" texnologiyalarının öz enerji sistemlərinə inteqrasiyasına mühüm önəm verilir. Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında "yaşıl" enerjinin ötürülməsinə dair üçtərəfli sazişin imzalanması da buradan irəli gəlir.

Yeri gəlmişkən, bir müddət bundan əvvəl Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında saziş Mərkəzi Asiya ölkələrinin energetika nazirlərinin Qazaxıstanda keçirilən ilk görüşündə əldə olunub. Sazişin imzalanması Mərkəzi Asiyadan Avropaya təmiz enerji ixracı üçün baş ofisi Bakıda yerləşən birgə müəssisə yaratmaq məqsədi daşıyır. Bu, 2022-ci ilin dekabrında Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Qafqazdan Avropaya enerji dəhlizinin yaradılmasına dair imzalanan sazişə əsaslanır. Bu təşəbbüs çərçivəsində Azərbaycandan təmiz elektrik enerjisini Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniyaya, oradan isə Macarıstana və digər Avropa ölkələrinə ötürmək üçün 1195 kilometr uzunluğunda sualtı kabel çəkiləcək. Layihənin məqsədi 4 QVt-a qədər təmiz enerji istehsal etməkdir.

Bundan əlavə, əsas nəqliyyat marşrutları üzərində yerləşən Azərbaycan və Özbəkistan bu sahədə fəal əməkdaşlıq edir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan mühüm nəqliyyat və logistika infrastrukturunu inkişaf etdirib və hazırda beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunub. Bu, Mərkəzi Asiya ölkələrindən, o cümlədən Özbəkistandan Azərbaycan vasitəsilə yük axınını xeyli artıracaq.

Sonda belə nəticəyə gəlmək olar ki, Azərbaycanın Özbəkistan, eləcə də digər Orta Asiya ölkələri ilə gündən-günə daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütün Türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir. İki dövlət arasındakı qarşılıqlı etimada söykənən dostluq və qardaşlıq əlaqələri bundan sonra da inkişaf edəcək, xalqlarımızın rifahının yaxşılaşmasına xidmət göstərəcək.

# Azərbaycan iqtisadiyyatı münbit yatırım meydanıdır

## *İlin əvvəlindən quruculuğa 9,4 milyard manat kapital qoyulub*

**Azərbaycanda milli iqtisadiyyatın inkişafını və rəqabətqabiliyyətinin artırılmasını hədəfləyən islahatların müsbət nəticələri getdikcə artır. Son 21 ilə yaxın bir müddətdə ölkəmizdə sosial-iqtisadi sahələrin inkişafına 300 milyard dollara yaxın sərmayənin yatırılması da bunun bariz nümunəsidir. Təsadüfi deyil ki, son illər bütün dünyada sabitlik məkanı kimi tanınan Azərbaycanda yaradılmış əlverişli investisiya mühiti əksər dövlətlər və beynəlxalq qurumlar tərəfindən bəyənilir, təqdir edilir. Elə Beynəlxalq Valyuta Fondunun 2024-cü il üzrə dərc etdiyi hesabatda Azərbaycanın dünyanın yeddi ən cəlbedici investisiya ölkəsi kimi önə çəkməsi də bunu təsdiqləyir.**



Ölkəmizdə əlverişli biznes mühitinin yaradılmasının əsası isə ümummilli lider Heydər Əliyev tərəfindən işlənib hazırlanmış düzgün iqtisadi strategeyi ilə qoyulub. Belə ki, Ulu öndər müstəqilliyin ilk illərində tənəzzülə uğramış iqtisadiyyatı böhrandan çıxarmaq üçün ölkədə azad bazar iqtisadi münasibətlərinin formalaşdırılmasını təmin edib. Ötən müddətdə Azərbaycanda hökm sürən daxili sabitlik, dövlətin siyasi iradəsi, mükəmməl qanunvericilik bazasının yaradılması, ölkədə investisiyaların səmərəli təşviqi mexanizminin işə salınması investorları iqtisadiyyatın bu və ya digər sahələrinə vəsait yönəltməyə sövq edir. Bunun nəticəsidir ki, ölkə iqtisadiyyatına kapital qoyuluşu getdikcə artır.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar–yul aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 9 milyard 438,7 milyon manat investisiya yönəldilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz çoxdur. Ümumi investisiyanın 3 milyard 297,5 milyon manatı neft-qaz sektorunun, 6 milyard 141,2 milyon manat isə qeyri-neft-qaz sektorunun inkişafına sərf edilib. Ötən ilin eyni dövrü ilə müqayisədə neft-qaz və qeyri-neft-qaz sektorlarına yatırılmış investisiyaların həcmi müvafiq olaraq 0,4 faiz, və 2,9 faiz artıb. Ümumi sərmayənin 4 milyard 914,8 milyon manatı və ya 52,1 faizi məhsul istehsalı sahələrinə, 3 milyard 404,4 milyon manatı (36,1 faizi) xidmət sahələrinə, 1 milyard 119,5 milyon manatı (11,8 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Cari ilin ötən 7 ayında ölkə iqtisadiyyatına yönəldilmiş sərmayənin 57,1 faizi dövlət, 42,9 faizi isə qeyri-dövlət sektorunu təmsil edən sərmayədarların payına düşüb. Hesabat dövründə daxili mənbələrdən əsas kapitala yönəldilmiş investisiyanın dəyəri ümumi sərmayənin 81,9 faizini təşkil edib. Ümumi investisiyaların 39,6 faizi sənaye, 26,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 22,7 faizi tikinti, 3 faizi informasiya və rabitə, 1,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,5 faizi maliyyə və sığorta fəaliyyəti, 0,8 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 0,7 faizi dövlət idarəetməsi və müdafiə, hər birində 0,6 faiz olmaqla, ticarət; nəqliyyat vasitələrinin təmiri, təhsil, 0,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 0,2 faizi peşə, elmi və texniki fəaliyyət, hər birində 0,1 faiz olmaqla, istirahət, əyləncə və incəsənət, digər sahələrdə xidmətlərin göstərilməsi sahələrinə sərf edilib.

Cari ilin yanvar–iyul ayları üzrə ümumi kapital qoyuluşunun 70,3 faizi tikinti-quraşdırma işlərinə sərf edilib. Hesabat dövründə tikinti müəssisələri tərəfindən (fərdi sahibkarlar nəzərə alınmaqla) yerinə yetirilmiş inşaat işlərinin 82,1 faizini tikinti, yenidənqurma və genişləndirmə, 8,4 faizini əsaslı təmir, 4,8 faizini cari təmir, 4,7 faizini sair tikinti işləri təşkil edib. Ümumi inşaat işlərinin 87,6 faizi isə qeyri-dövlət tikinti müəssisələri tərəfindən yerinə yetirilib.

Azərbaycan iqtisadiyyatına xarici sərmayə axınının əsası isə 30 il əvvəl Bakıda imzalanmış "Əsrin müqaviləsi" ilə qoyulub. Məhz həmin tarixi sazişin imzalanmasından sonra ölkəmizin qapıları xarici sərmayədarların üzünə taybatay açılıb. Təsadüfi deyil ki, "Əsrin müqaviləsi"nin imzalanmasına həsr olunmuş təntənəli mərasimdə ulu öndər Heydər Əliyev deyib: "Bu müqavilənin imzalanması bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addımdır. Biz müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk".

Ümumilli liderin söylədiyi həmin tarixi kəlamlar ötən müddətdə özünü tam doğruldub, Azərbaycan əlverişli investisiya məkanı kimi bütün dünyada tanınıb. Ölkə iqtisadiyyatına birbaşa xarici investisiya qoyuluşu bu ilin ötən dövründə də davam edib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ilin yanvar-iyul aylarında xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan iqtisadiyyatına 1 milyard 710 milyon manatdan artıq investisiya yönəldilib. Ümumi xarici investisiyanın 1 milyard 628,8 milyon manatı (95,2 faizi) Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, ABŞ, İsveçrə, Türkiyə, Yaponiya, Rusiya, Norveç, İran, Hindistan, Qırğızıstan, Birləşmiş Ərəb Əmirlikləri və Fransa sərmayədarlarının payına düşüb.

# Özəlləşdirmə 7 ayda büdcəyə 100 milyon manat qazandırıb

**Əmlak Məsələləri Dövlət Xidməti 7 ayda özəlləşdirmə və icarədən dövlət büdcəsinə 123 milyon manat vəsait qazandırıb.**



Dövlət Xidmətindən redaksiyamıza bildirilib ki, bu ilin yanvar-iyul ayları ərzində 35 hərrac keçirilib. Hərraclarda 5 səhmdar cəmiyyətinin səhm paketi, 6 kiçik dövlət müəssisəsi, 465 nəqliyyat vasitəsi satılıb.

Hesabat dövrü ərzində hərraca çıxarılan dövlət əmlakı üzrə 360 elektron sifariş qəbul edilib, hərraclarda iştirak etmək məqsədilə "Elektron hərrac" proqram təminatı vasitəsilə 44 onlayn qoşulma reallaşıb.

Cari ilin 7 ayında özəlləşdirmədən dövlət büdcəsinə 101 milyon manat vəsait daxil olub, ötən ilin eyni dövrü ilə müqayisədə 46 faiz artım qeydə alınıb.

Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən bu ilin yanvar-iyul ayları ərzində 350-si qeyri-yaşayış, 1881-i isə torpaq sahəsi üzrə olmaqla 2231 yeni icarə müqaviləsi bağlanılıb.

Hesabat dövründə daşınmaz dövlət əmlakının (qeyri-yaşayış və torpaq sahələrinin) icarəsindən dövlət büdcəsinə 22 milyon manat vəsaitin ödənilməsi təmin olunub, ötən ilin eyni dövrü ilə müqayisədə 14,5 faiz artım qeydə alınıb.

# Ölkəmizdə "Avro-5" dizel yanacağı istehsalı mənimsənilib

**Heydər Əliyev adına Neft Emalı Zavodunun laboratoriyası EN 590 sınaq parametrlərinə uyğun olaraq "Avro-5" dizel məhsulu üzrə beynəlxalq ISO/IEC 17025 akkreditasiyasını əldə edib. Bu barədə şirkətin socar.az saytı məlumat yayıb.**



Bildirilib ki, Türkiyə Akkreditasiya Mərkəzinin (TÜRKAK) həyata keçirdiyi akkreditasiya auditindən sonra avqustun 20-də qurumun rəhbəri Banu Müderrisoğlu müvafiq sertifikatları "SOCAR Downstream Management" MMC şirkətinin baş direktoru Emil Alxaslı və şirkətin laboratoriyalar üzrə direktoru Volkan Şenola təqdim edib.

Xatırladaq ki, akkreditasiyanın əsas üstünlüyü Heydər Əliyev adına Neft Emalı Zavodunun mərkəzi laboratoriyasının sınaq nəticələrinin beynəlxalq səviyyədə tanınmasıdır. Beynəlxalq laboratoriya Akkreditasiya Qurumu tərəfindən beynəlxalq akkreditasiyanın əldə edilməsi ixrac bazarlarına daha asan çıxış imkanı yaradır və etibarlı məhsul keyfiyyətini təmin edir. ISO/IEC 17025 akkreditasiyası beynəlxalq standartlara uyğunluğun və texniki səriştəliliyin ən etibarlı göstəricisi olmaqla yanaşı, tərəfsizlik və məxfilik aspektlərini də ehtiva edir.

Hazırda zavodun laboratoriyasının Azərbaycan Akkreditasiya Mərkəzində (AZAK) akkreditasiyasının tamamlanması üzrə işlər həyata keçirilir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




## “Yaşıl dünya” naminə həmrəylik



# Azərbaycanın ekoloji fəlakəti dayandırmaq çağırışları

## *Ölkəmizin 14 önəmli təklifi beynəlxalq aləmdə ciddi müzakirələr doğurub*

**Azərbaycan energetika nazirinin müavini, bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29-un baş katibi Elnur Soltanov Türkiyənin “Anadolu” agentliyinə müsahibəsində bildirib ki, konfransda milli, regional və qlobal səviyyəli məsələlər müzakirə olunacaq və əsas mövzu isə iqlim maliyyəsi olacaq.**

E.Soltanov qabaqcıl dövlətlərin inkişaf etməkdə olan ölkələrə daha çox yardım göstərməsinin COP29-un gündəmində olacağını bildirib: “Dünyanın istixana qazı emissiyalarının, təxminən, 4 faizi Afrika qitəsinin payına düşür. Bununla belə, iqlim dəyişikliyindən ən çox ziyanı bu qitə çəkir.

İstixana qazları emissiyalarını və iqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün inkişaf etməkdə olan ölkələrə maliyyə dəstəyi göstərilməlidir. Hazırda 100 milyard dollar həddində olan iqlim maliyyələşməsini artırmaq üçün ciddi danışıqlar aparılır. COP29-da bununla bağlı qərar qəbul ediləcəyinə ümid bəslənilir”.







COP29-un baş katibinin sözlərinə əsasən, Azərbaycan bu məsələ ilə bağlı 14 təklif irəli sürüb. Bu təkliflərin reallaşdırılması üçün bəzi ölkələr və ya şirkətlərlə müzakirələr aparılacaq. Azərbaycanın təklifi ilə müzakirə ediləcək məsələlər arasında iqlim maliyyəsi, enerji, kənd təsərrüfatı, su ehtiyatları, turizm, rəqəmsallaşma, “yaşıl” şəhərlər və insan resursları da var. Olimpiadada olduğu kimi, bütün dünyada atəşkəsə çağıracağıq”, – o qeyd edib.

E. Soltanov bildirib ki, COP29 Azərbaycanın indiyədək evsahibliyi etdiyi heç bir beynəlxalq tədbirlə müqayisəyə gəlməyəcək bir konfrans olacaq. Ölkəmiz iqlim danışıqlarına rəhbərlik edəcək və bu məsələ ilə bağlı fəaliyyəti nümayiş etdirəcək. Biz Azərbaycanın qonaqpərvərliyini göstərəcək, dövlət qurumlarının, şirkətlərin və qeyri-hökumət təşkilatlarının koordinasiyalı fəaliyyəti ilə keyfiyyətli təşkilatçılıq həyata keçirəcəyik.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyası bu ilin noyabrında Azərbaycanda keçiriləcək. İki həftə ərzində dünyanın mərkəzinə çevrilən Bakı 70-80 minə yaxın xarici qonaq qarşılayacaq.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası 1992-ci ilin iyununda Rio-de-Janeyroda keçirilən Yer Sammitində insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq üçün imzalanmış sazişdir. "COP" (Conference of Parties) abbreviaturası İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ən yüksək qanunverici orqan olan “Tərəflərin Konfransı” mənasını verir.

Konvensiyada 198 ölkə iştirak edir. Tərəflər başqa cür razılaşmırsa, COP hər il keçirilir. İlk COP tədbiri 1995-ci ilin martında Berlində reallaşıb və katibliyi Bonnda yerləşir.

# “Matanat A” Şirkətlər Qrupunun “yaşıl” texnologiyaları

**Azərbaycan qlobal “yaşıl” təşəbbüslərə ilk qoşulan ölkə olaraq, beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Bununla da dünyanın etibarlı “yaşıl” enerji tərəfdaşı kimi mövqeyimiz getdikcə güclənir. Ölkəmizin beynəlxalq aləmdə nüfuzu möhkəmlənir, ətraf mühitin qorunması istiqamətində atdığı addımlar yüksək dəyərləndirilir.**

Bu il COP29 tədbirinə Azərbaycanın evsahibliyi etməsi isə respublikamızın beynəlxalq aləmdəki nüfuzunun göstəricisi, ölkəmizə göstərilən böyük etimad, Prezident İlham Əliyevin daxili və xarici siyasətinin məntiqi nəticəsidir.

COP29 konfransında Azərbaycan iqlim dəyişikliyinə verdiyi töhfələri əyani şəkildə dünya ictimaiyyətinə çatdıracaq və ölkələri bu qlobal təşəbbüsə həmrəylik göstərməyə səsləyəcək. Eyni zamanda, “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində COP29-da əhəmiyyətli qərarların qəbul olunmasına dəstək nümayiş etdirməklə özünün dünya liderliyini bir daha təsdiqləyəcək.




Beynəlxalq birliyin belə bir qlobal tədbirə evsahibliyini məhz Azərbaycan dövlətinə etibar etməsi ölkəmizin bu sahədə zəngin təcrübəyə malik olmasından, eyni zamanda, BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü dövrü, o cümlədən Qoşulmama Hərəkatına sədrliyi zamanı dəstək qazanmasından və etimadı tam doğrultmasından, Prezident İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslərin beynəlxalq ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmasından, habelə dünya səviyyəsində dövlətimizin başçısının yürütdüyü siyasətə göstərilən güclü dəstəkdən irəli gəlir.

Dövlətimizin qarşıya qoyduğu əsas milli prioritetlərdən biri olan “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi önəmli prinsipin diqqətdə saxlanılması, həmçinin 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi bu sahədə aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin təzahürüdür.

İnnovativ “yaşıl” inşaat materiallarının istehsalı və tətbiqi davamlı tikintinin təşviqində və sağlamlıq üçün “yaşıl” dünyanın yaradılmasında çox vacibdir. Bu, eyni zamanda, daha dayanıqlı tikinti sənayesinin yaradılmasında mühüm rol oynayır. Belə tikinti materiallarından istifadə etməklə ətraf mühitə təsiri azaltmaq, enerji səmərəliliyini yaxşılaşdırmaq və daha sağlam yaşayışın gerçəkləşdirilməsi mümkündür.

25 ilə yaxındır ki, uğurla fəaliyyət göstərən “Matanat A” şirkəti iş prosesində daim innovasiyalara və “yaşıl” inşaat texnologiyalarının tətbiqinə üstünlük verib. Şirkət bu müddətdə istehsal etdiyi məhsullarda enerjiyə qənaət, iqtisadi-ekoloji səmərəlilik, təhlükəsizlik, davamlılıq və cəlbedici dizayn-üslub faktorlarının vəhdətinə xüsusi diqqət yetirib.

“Matanat A” 26 məhsul qrupunda fəaliyyət göstərməklə, 2000-dən artıq məhsul çeşidinə, 200-dən çox ticarət markasına və yüksək texnologiyalı müasir zavodlara malikdir, dünya miqyasında patentləşdirilmiş bir neçə ixtiranın müəllifidir. Qloballaşmanı özünün əsas strateji xətti hesab edən şirkət “Made in Azerbaijan” adı altında dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. Əsas məhsul qruplarına gipskarton lövhələri (alçıpan), daxili arakəsmə sistemləri, gips əsaslı suvaq və şpatklyovkalar, keramika yapışdırıcıları, hidroizolyasiya məhsulları, daş yunu, fasad quru divar sistemləri, istilik izolyasiya məhsulları, əhəng və əhəngdaşı əsaslı məhsullar, lak və boya məhsulları, dekorativ fasad örtükləri, epoksid əsaslı boya və örtüklər, beton qatqıları və digər çoxsaylı məhsul qrupları aiddir.

“Matanat A” şirkətinin biznes fəlsəfəsinin əsasında yeni inşaat texnologiyalarının yaradılması və mövcud texnologiyaların tətbiq səmərəliliyinin artırılması durub. Bu səbəbdəndir ki, qurum Kəşf və İxtiraların Tədqiqi və Tətbiqi Akademiyasını təsis edib. Bu akademiyada inşaatın qlobal problemlərinin tədqiqi, “yaşıl” texnologiyalara əsaslanan yeni inşaat həlləri üzərində elmi-tədqiqat işlərinin həyata keçirilməsi və inşaatın müxtəlif parametrlər üzrə keyfiyyəti yüksəldən yeniliklərin işlənib hazırlanması daim diqqətdə saxlanılıb.

Şirkətin uğurlu innovasiya strategiyasının gerçəkləşdirilməsi nəticəsində innovativ və “yaşıl” inşaat texnologiyalarına əsaslanan məhsullar– Fasnatural, ekoloji sağlam Ağdağ suvağı, innovativ gips blokların istehsalı, suda batmayan bloklar və dekorativ ornamentlər, Ağdağ Natural Gipskarton lövhələri, Azvul mineral daş yunu, suvaq üçün əhəng məhsulu, quru qarışığın ixtirası yaradılıb və onların bir çoxu patentləşdirilib.

***“Matanat A” Şirkətlər Qrupu***

# Ekoloji aşınmalar “qırmızı xətləri” ötüb keçir

**COP29 konfransı qlobal iqlim dəyişikliyi ilə mübarizədə əhəmiyyətli addımların atılması, regional əməkdaşlığın gücləndirilməsi və dayanıqlı inkişaf üçün yeni perspektivlərin yaradılmasında mühüm bir platforma olacaq. Bu, eyni zamanda, ekoloji zənginliyi və unikal təbii sərvətlər ilə diqqət çəkməklə yanaşı, iqlim dəyişikliyinin təsirlərinə məruz qalan Cənubi Qafqazın bu istiqamətdə çətinliklərinin aradan qaldırılmasına müsbət təsir göstərəcək.**

Cənubi Qafqaz müxtəlif ekosistemlərə və unikal bioloji müxtəlifliyə malik olan bir regiondur. Azərbaycanın Xəzər dənizi sahilləri, Gürcüstanın Böyük Qafqaz dağları və Ermənistanın meşəlik əraziləri bu coğrafiyada ekoloji zənginliyi şərtləndirir. Bu təbii sərvətlər yalnız yerli iqtisadiyyatlar üçün deyil, həm də qlobal ekosistemin balansı üçün mühüm önəm daşıyır. Təəssüf ki, hazırda iqlim dəyişikliyi regionun ekosistemlərini və bioloji müxtəlifliyini ciddi təhlükə altına alır, “qırmızı xətlər” tapdalanır.



Son illərdə Cənubi Qafqazda temperaturun artması, su ehtiyatlarının azalması və təbii fəlakətlərin tezliyinin və şiddətinin artması kimi problemlər müşahidə olunur. Bu, kənd təsərrüfatı, su təchizatı və ətraf mühitin qorunması sahələrində ciddi çətinliklərlə narahatlıq doğurur. Məsələn, quraqlıq dövrünün uzanması aqrar sektorda məhsuldarlığın aşağı düşməsinə, su ehtiyatlarının azalmasına gətirib çıxarır.

COP29 konfransı Cənubi Qafqazda bu problemlərin həllinə yönələn qlobal və regional səylərin gücləndirilməsi üçün əhəmiyyətli bir imkan yaradır. Buna görə də sammit çərçivəsində iqlim dəyişikliyinə qarşı mübarizədə daha təsirli tədbirlərin görülməsi, ekosistemlərin qorunması və su ehtiyatlarının səmərəli idarə edilməsi, ümumiyyətlə, dayanıqlı inkişaf üçün yeni strategiyaların hazırlanması gözlənilir.

Yeri gəlmişkən, dayanıqlı inkişaf yalnız iqtisadi artımı deyil, həm də sosial ədalətin gerçəkləşdirilməsi və ətraf mühitin mühafizəsi kimi məsələləri əhatə edir. Cənubi Qafqaz isə dayanıqlı inkişaf üçün böyük potensiala malikdir. Bununla yanaşı, regionda iqlim dəyişikliyinin təsirlərini minimuma endirmək və əhalinin rifahını təmin etmək üçün yeni yanaşmalara ehtiyac var.

Bu baxımdan COP29 region üçün yeni perspektivlər açacaq, Cənubi Qafqaz ölkələrinin bərpaolunan enerji mənbələrinin inkişafında, enerji təhlükəsizliyinin təmin edilməsi və karbon emissiyalarının azaldılmasında birgə fəaliyyəti şərtləndiriləcək, iqlim dəyişikliyinə qarşı mübarizənin əsasını təşkil edəcək, regionda yeni iş yerlərinin açılması və iqtisadiyyatın şaxələndirilməsi üçün yeni imkanlar yaradacaq.

Su ehtiyatlarının qorunması və idarə edilməsi Cənubi Qafqaz üçün vacib məsələlərdən biridir. Xüsusilə quraqlıq və su qıtlığı ilə üzləşən bu regionda su ehtiyatlarının səmərəli istifadəsi və yeni su təchizatı layihələrinin həyata keçirilməsi zəruridir. COP29 konfransı şübhəsiz ki, bu sahədə beynəlxalq və regional əməkdaşlığı gücləndirəcək və su ehtiyatlarının idarə edilməsində müasir texnologiyaların tətbiqi üçün yeni təşəbbüslərə meydan açacaq. Su ehtiyatlarının qorunması təkcə ətraf mühitin mühafizəsi üçün deyil, həm də kənd təsərrüfatı və sənaye sektorlarının davamlılığı üçün zəruridir.

Qeyd edim ki, iqlim dəyişikliyi yalnız ekoloji təsirlərlə məhdudlaşmır, eyni zamanda, sosial ədalət məsələlərini gündəmə gətirir. Ekstremal hava şəraiti və təbii fəlakətlər, xüsusən də zəif sosial təbəqələrə və kənd ərazilərində yaşayan insanlara ciddi təsir göstərir. Cənubi Qafqazda da sosial və ekoloji ədalətin gerçəkləşdirilməsi üçün ciddi addımlar atılmalıdır.

Əminəm ki, sözügedən beynəlxalq sammit Cənubi Qafqazda sosial və ekoloji ədalətin gücləndirilməsi məqsədilə yeni imkanlar təqdim edəcək. Konfrans çərçivəsində keçiriləcək tədbirlər regionda ekoloji təsirlərin daha ədalətli paylaşılmasını və zəif icmaların iqlim dəyişikliyinə qarşı daha güclü dəstəklənməsini gerçəkləşdirəcək. Bu tədbirlər arasında sosial təminat sistemlərinin gücləndirilməsi, ekoloji zərərlərin kompensasiya edilməsi və ekoloji təhsil proqramlarının genişləndirilməsi kimi məsələlər yer alacaq.

Cənubi Qafqazda dayanıqlı inkişafın təmin edilməsi üçün regional əməkdaşlıq mühüm rol oynayır. Region ölkələri arasında su ehtiyatlarının idarə edilməsi, meşələrin qorunması və bərpa olunması, bərpa olunan enerji mənbələrinin inkişafı kimi sahələrdə əməkdaşlıq zəruridir. Bu əməkdaşlıq, yalnız ekoloji problemlərin həllinə kömək etməyəcək, həm də regionda iqtisadi inteqrasiyanı və sosial sabitliyi gücləndirəcək.

Fikrimcə, COP29-da müzakirəyə çıxarılacaq məsələlərin həlli üçün regional əməkdaşlığın gücləndirilməsi naminə konkret addımlar atılması zəruridir. Region ölkələri arasında daha sıx əməkdaşlıq məqsədilə yeni layihələrin həyata keçirilməsinə və ekoloji problemlərin daha səmərəli həllinə şərait yaradılmalıdır.

***Gülşən AXUNDOVA,***
***Qadın, İnkişaf, Gələcək İctimai Birliyinin sədri, COP29 Təşkilat Komitəsinin üzvü***

# COP29-un İKT sınaqlarına başlanıb




**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının protokol və standartlarına əsaslanılmaqla informasiya və kommunikasiya texnologiyaları sistemlərinin fasiləsiz, qüsursuz işinin təmin edilməsi məqsədilə sınaq mərhələsinə start verilib.**

COP29 Azərbaycan Əməliyyat Şirkətindən verilən məlumata görə, Texniki Konsepsiyanın Təsdiqi (Proof of Concept – PoC) adlanan bu mərhələ COP29 Azərbaycan Əməliyyat Şirkəti və UNFCCC-nin səlahiyyətli nümayəndələrinin iştirakı ilə avqustun 19-da tədbirin keçiriləcəyi Bakı Olimpiya Stadionunda başlayıb. Sınaqların ilk günü UNFCCC nümayəndələri hazır infrastrukturlarda mövcud sistemlərlə tanış olub, iki mövcud məlumat bazası mərkəzini, eləcə də aqreqasiya və kommunikasiya otaqlarını ziyarət ediblər.

Üç həftə davam edəcək PoC mərhələsi iqlim konfransı zamanı istifadə ediləcək şəbəkə və xidmətlərin təhlükəsizliyi, funksionallığı və effektivliyi müxtəlif sınaqlar vasitəsilə yoxlanışdan keçiriləcək. Bu yoxlamalar İKT və simsiz şəbəkə xidmətlərinin təhlükəsizliyi, akkreditasiya prosesinin simulyasiya, eləcə də kibertəhlükəsizlik sınaqları kimi bir sıra mərhələləri əhatə edəcək. Bu yoxlamalar tədbir zamanı baş verə biləcək hər hansı bir problemin qarşısının alınması üçün texniki hazırlıqların təmin edilməsinə imkan yaradaraq mümkün risklərin qiymətləndirilməsinə xidmət edir.

Qeyd edək ki, sentyabrın 8-dək davam edəcək PoC yoxlamalara, həmçinin Bakı Olimpiya Stadionunda fəaliyyət göstərəcək tərəfdaş və podratçı şirkətlərin müvafiq heyətləri də cəlb olunacaq. PoC sınaq mərhələsinin yekununda COP29 konfransında tətbiq ediləcək İKT infrastrukturunun hazırlıq səviyyəsi qiymətləndiriləcək təsdiqlənəcək və sistemlərin tam işlək hala gətirilməsi təmin ediləcək.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# “Xalq qəzeti” Azərbaycanın 105 illik tarixi salnaməsidir

## Müsahibimiz Azərbaycanın ictimai-siyasi və dövlət xadimi, tarix elmləri doktoru Həsən Həsənovdur

**– Həsən müəllim, sovet dönəmində uzun müddət Azərbaycan Respublikasının rəhbərliyində məsul vəzifələrdə çalışmısınız. Hətta Azərbaycan KP MK-nın ideologiya üzrə katibi, yəni müasir yozumda Heydər Əliyevin elm, təhsil, mədəniyyət, təbliğat və təşviqat üzrə müavini olmusunuz. Həmin illərdə ölkənin bir nömrəli anadilli mətbu orqanı olan “Kommunist” qəzetinin fəaliyyəti sizin rəhbərliyiniz altında davam edib. Bu qəzetin sovet dönəmindəki rolu və dəyəri haqqında fikirlərinizi bilmək istərdik.**

– SSRİ-nin ilk onilliklərində hakim partiyanın ideologiyası ictimai-siyasi həyata hopmuşdu və bu səbəbdən də sovet mediası uzun illər dünyanın ən ideoloji mediası imicinə sahib idi. Təbliğat təkcə jurnalistikadan deyil, həm də ədəbiyyat və incəsənətdən, kino və televiziyadan istifadə edərək öz dünya modelini yaratmaqla məşğul idi. “Kommunist” qəzeti də istisna deyildi və bu axında idi.

Stalinin həyatdan köçməsi və adının siyasi səhnədən çıxarılması ilə Sovet İttifaqının ictimai-siyasi həyatında bir çox dəyişikliklər oldu. Bu özünü, ilk növbədə, kütləvi informasiya vasitələrində göstərməyə başladı. Bir müddət senzuranın zəifləməsi və müəyyən qədər söz azadlığı medianın sürətli inkişafına, cəmiyyətlə hakimiyyət arasında dialoqun formalaşmasına səbəb oldu. Lakin mövcud şərtlər yumşalsa da, sovet ideologiyası KİV-in fəaliyyətinə təsirini davam etdirirdi.

Sov.İKP-nin XX Qurultayından və Stalinə pərəstiş dövrü başa çatdıqdan sonra ictimai-siyasi həyatda bir istiləşmə dövrü formalaşdı. Mətbuatda sovet cəmiyyətinin müxtəlifliyini və mürəkkəbliyini əks etdirən çoxşaxəli məqalələr dərc olunmağa başladı.

Bu dəyişikliklər Azərbaycandan, respublika mediasından, eyni zamanda, Azərbaycan KP MK-nın orqanı olan “Kommunist” qəzetindən də yan keçmədi. Qəzet cəmiyyətin bütün istehsal və ictimai fəaliyyət sahələrinə nüfuz edərək ölkəmizdə bütün sosial, peşə, yaş, milli təbəqə və insan qruplarını, bütün dövlət və ictimai təşkilatları əhatə edirdi. Bunu əsla danmaq olmaz. Qəzetiniz çox böyük tirajla nəşr edilirdi və respublikanın bütün bölgələrinə çatdırılırdı.

“Kommunist” qəzetində çox ciddi yazılar, publisistik məqalələr dərc edilirdi. Amma faktlara gələndə, onlara son dərəcə məsuliyyətlə yanaşılırdı. Qəzet oxucuların məktublarını qəbul edir və vəziyyəti aydınlaşdırmaq üçün hadisə yerinə jurnalist göndərirdi. Bu cür jurnalist araşdırmalarının nəticələri qəzet səhifəsinə çıxarılanda, çap edilən material bir çox hallarda ən yüksək səviyyədə - rayon, şəhər və hətta Azərbaycan KP MK-nın bürosunda belə müzakirəyə çıxarılırdı və çox ədalətli qərarlar qəbul edilirdi.

Ona görə də indi bir çox hallarda səslənən fikirlərin əksinə olaraq qeyd etmək lazımdır ki, sovet təbliğatı, elə onun bir orqanı olan “Kommunist” qəzeti ağa qara deyib düşmən obrazı yaratmırdı, həm də cəmiyyətin, xalqın problemlərini işıqlandırırdı, dilimizin, mədəniyyətimizin inkişafı üçün yetərincə xidmətlər göstərirdi. Neçə-neçə əmək qəhrəmanı – neftçi, pambıqçı, kənd təsərrüfatı işçisi, istedadlı mədəniyyət və incəsənət xadimi, şair və yazıçı haqqında publisistik yazılar, portret-oçerklər dərc edilirdi və bu adamlar cəmiyyətə tanıdılırdı.

**– Sizin sovet dönəmində də dövlət idarəçiliyində yüksək vəzifə tutmağınıza baxmayaraq, daim ədəbi-mədəni prosesləri izləyən, tariximizə, ədəbiyyatımıza nüfuz edən bir insan olduğunuzu bildiyimdən soruşmaq istərdik: milli-mədəni dəyərlərimizin, ədəbiyyatımızın, ana dilimizin qorunmasında və inkişafında “Kommunist” qəzetinin xidmətləri nədən ibarətdir?**

– Sovet dövründə qəzetlərin sayı indikinə nisbətən məhdud idi. “Kommunist” qəzeti Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin əsas orqanı idi. Bu səbəbdən də Azərbaycanın həyatında baş verən bütün hadisələr, cəmiyyətdə gedən proseslər bu qəzetin diqqət dairəsində idi. Əlbəttə, dərc edilən əksər materiallar iqtisadiyyatla, sənaye yenilikləri, kənd təsərrüfatı ilə bağlı idi. Sənayedə, xüsusilə də kənd təsərrüfatındakı vəziyyət geniş işıqlandırılırdı. Qeyd etdiyim kimi, qəzetin əsas qəhrəmanı, harada işlədiyindən asılı olmayaraq əksər hallarda zəhmət adamı, halal insan idi.

O zaman bir qayda olaraq Mərkəzi Komitədə hər hansı bir yubileylə bağlı qərar qəbul olunanda “Kommunist” qəzeti o qərarın aparıcı təbliğatçısına çevrilirdi. Yeri gəlmişkən deyim ki, mən 1958-ci ildə Bakıya Tiflis şəhərindən gəlmişəm. Tiflisdə rus məktəbini bitirmişdim. Azərbaycan dilini bilirdim, lakin söz ehtiyatım çox məhdud idi. Həmin dövrdə Füzulinin, Aşıq Ələsgərin, Vaqifin və başqa klassiklərimizin yubiley tədbirləri çərçivəsində qəzetiniz geniş və davamlı olaraq onların əsərlərindən parçalar çap edirdi. Qəzetinizin bu kimi materialları, demək olar ki, mənim üçün Azərbaycan ədəbi dilini öyrənməkdə əsas mənbəyə çevrilmişdi. Qəzetdə tanınmış elm və mədəniyyət xadimləri, yazıçılar çalışırdılar və bunun özü ədəbi dilimizin inkişafına, mədəni mühitin formalaşmasına çox böyük təsir göstərirdi.

**– Heydər Əliyev 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçiləndən sonra respublikanın həyatında əsaslı islahatlara start verildi. Bu dönüş “Kommunist”in fəaliyyətində necə əksini tapdı?**

– 1969-cu ilin iyulunda Heydər Əliyev hakimiyyətə gələndən bir ay keçməmiş “Kommunist” qəzetinin 50 illik yubileyində iştirak etdi və burada Azərbaycan dilində nitq söylədi. Bundan sonra Bakı Dövlət Universitetinin 50 illik yubileyində iştirak etdi və yenə doğma Azərbaycan dilində nitq söylədi. Bu çıxışlar o dövr üçün qeyri-adi bir hadisə idi və artıq ziyalıların, Azərbaycanın yaradıcı insanlarının düşüncəsində bir çevriliş etdi. Doğrudur, ona qədər heç kimə öz ana dilində danışmağa rəsmi şəkildə qadağa qoyulmamışdı. Lakin Heydər Əliyevə qədər belə böyük tədbirlərdə yüksək vəzifəli şəxslər bir qayda olaraq öz çıxışlarını rus dilində edirdilər. Buna baxmayaraq, Heydər Əliyev Azərbaycan dilində çıxış edib göstərdi ki, hər kəs öz dilində çıxış edə bilər və əgər öz dilimizin inkişafını istəyiriksə, məhz bu yolla getməliyik. Bu, doğma dilimizə münasibəti kökündən dəyişdi. Bu addım bütün anadilli mətbuatın, ilk növbədə isə “Kommunist” qəzetinin kollektivində ana dilində yazıb-yaratmağa, bu dilin inkişaf etdirilməsinə çox güclü bir təkan verdi. Etiraf etmək lazımdır ki, o dövrün jurnalistləri, ədibləri, mədəniyyət və incəsənət adamları arasında da doğma dilə, milli-mənəvi dəyərlərə vətəndaş yanğısı ilə yanaşan insanlar çox idi. Onlar Heydər Əliyevin milli düşüncənin inkişafı naminə açdığı cığırla daha qətiyyətlə irəliləməyə başladılar.

1981-ci ildə Heydər Əliyevin “Literaturnaya qazeta”da “Qoy ədalət zəfər çalsın” başlığı altında dərc edilmiş müsahibəsi artıq SSRİ miqyasında çox böyük sensasiyaya səbəb oldu. Heydər Əliyev bu müsahibədə SSRİ miqyasında heç kimin dilə gətirə bilmədiyi fikirləri səsləndirdi. Yüksək post tutan şəxslərin belə çıxış və müsahibələri SSRİ üçün xarakterik deyildi. Bu müsahibədə Azərbaycan Kommunist Partiyasının başçısı olan Heydər Əliyev həmin illərdə tarixi kəlama çevrilmiş “qoy ədalət zəfər çalsın” ifadəsi ilə o zaman SSRİ-nin bir çox yerlərində ört-basdır edilən korrupsiya və rüşvətxorluqla bağlı problemlərdən, cəmiyyətin mənəvi çatışmazlıqlarından açıq danışdı.

Heydər Əliyev elə həmin müsahibədə deyir: “Rüşvət universal cinayətdir. Bütün başqa eybəcərliklər onun ətrafında dolanır. Rüşvətxor dövlətin mənafeyini satır, öz fəaliyyətini satır, başqa birisi isə pul verib bunları alır... Keçmişin mənfur qalığı yaşayırsa, bunun təqsiri hər birimizin üzərinə düşür, hətta təmiz, pak adamın da, hətta rüşvət alanlara və rüşvət verənlərə nifrət edən adamın da. Şəxsən təmiz olmaq və şəxsən çiyrinmək hələ vətəndaşlıq ləyaqəti deyildir. Vətəndaşlıq fəallıq deməkdir, Şərə qarşı mübarizə aparmaq bacarığı və arzusu deməkdir”.

Təbii, bu fikirlər Azərbaycan ziyalılarına, millətin qabaqcıl insanlarına nəyə, hansı amala xidmət etməli olduqlarını göstərirdi. Bu, eyni zamanda Azərbaycan jurnalistlərinə bir çağırış idi ki, cəmiyyətdə belə hallara qarşı ciddi mübarizə aparmaq lazımdır. Ona görə də Heydər Əliyevin hakimiyyəti illərində qəzetinizin səhifələrində yüzlərlə tənqidi məqalələr, felyetonlar, ciddi jurnalist araşdırmaları yer alırdı və oxucularınızın ciddi marağına səbəb olurdu.

**– Heydər Əliyev Azərbaycandan SSRİ rəhbərliyinə irəli çəkiləndən sonra sizi də ideoloji sahədən kənarlaşdırıb sənaye-tikintiyə rəhbərliyə keçirdilər. Bu dəyişiklik nədən irəli gəldi? Həmin illərdə Azərbaycanda tikinti sahəsində Heydər Əliyev layihələrini davam etdirərkən “Kommunist” qəzeti ilə sıx işləmisiniz. Bu barədə bir qədər təfərrüatı ilə məlumat verə bilərsinizmi?**

– Heydər Əliyev məni Gəncədən Bakıya, yanına rəhbər vəzifəyə gətirəndə birmənalı olaraq qarşıma vəzifə qoydu ki, Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti, həmçinin şahmatın inkişafına aid Gəncədə gördüyüm işlər respublika miqyasında genişlənməli, inkişaf etdirilməlidir. Bunlara əlavə olaraq xüsusi vurğuladı ki, Gəncədə dağılmış məscidlərin bərpasına bənzər respublikada da tarixi-mədəni abidələrin bərpası ilə bağlı işləri davam edirmək lazımdır. Təbii, Heydər Əliyevə arxalandığım üçün geniş fəaliyyətə keçmək imkanım yarandı. Bu fəaliyyətimdə “Kommunist” qəzeti, demək olar ki, vacib platforma oldu. Ümumiyyətlə, xalqımızın milli düşüncəsinin inkişafı və möhkəmlənməsi yolunda görülən işlərin mətbuatda işıqlandırılması həlledici rol oynayırdı. Lakin Heydər Əliyev Moskvaya gedəndən sonra artıq Moskva mənim bu fəaliyyətimlə bağlı narazılıqlarını bildirdi. Bu sahədə görülən işlərə irad tutaraq millətçi fəaliyyətə meyilli damğası ilə ixtisasım üzrə tikinti sahəsinə keçirildim. Amma burada da yenə Heydər Əliyevin, siz dediyiniz kimi, əkdiyi toxumların uğurla cücərməsi yolunda fəaliyyətimi davam etdirdim. Bakıda yaşayış massivlərinin və kəndlərimizdə yaşayış evlərinin tikintisi kimi vacib bir məsələyə xüsusi diqqət ayırdım. Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Qaradağ rayonunda əzəmətli və indi də gündən-günə dəyərləri artan Bakı Dərin Özüllər və Gəncə Avtomobil zavodlarının tikintisi diqqət mərkəzimdə oldu. Bunlar Heydər Əliyevin başladığı çox mühüm və respublika iqtisadiyyatı üçün vacib olan layihələr idi. Ona görə də bunların həyata keçirilməsində “Kommunist” qəzetinin imkanlarından, təbliğat gücündən yararlanır, proseslərin gündəlik işıqlandırılmasını təşkil edir və xalqın diqqətinə çatdırırdıq.

**– Müstəqillik illərində bəzi qələm sahibləri “Kommunist” qəzetini az qala qırmızı imperiyanın ideoloji qılıncı adlandırmağa başladılar və çox sərt ittihamlarla çıxış etdilər. Amma ümummilli lider Heydər Əliyev qəzetin 75 illiyi ilə bağlı 1994-cü ildə redaksiyaya ünvanladığı təbrik məktubunda yazırdı: “Xalq qəzeti” mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərimizdəndir. Uzun müddət “Kommunist” adı ilə nəşr edilən bu qəzet bütün Sovet dövrü ərzində Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur...” Bu fikri ilə Ulu öndər böyük çoxluğun mövqeyini dəstəklədi.**

– Qəzetin ünvanına sərt ittihamlar səsləndirən və belə mövqedə olanlar, əslində Sovet sistemi haqqında tam təsəvvürləri olmayan şəxslərdir. Mən Sovetin 30-cu illəri haqqında demirəm, o başqa zaman idi. Lakin 70-80-ci illərdə “Kommunist”, yəni indiki “Xalq qəzeti” əksinə, hətta kimisə sadəcə tənqid edərkən, necə deyərlər, 100 ölçüb, bir biçərdi. Mətbuatda tənqid olunan şəxslər bir qayda olaraq, hansısa təşkilatda yoxlamalardan sonra qəzetlərdə onlar haqqında məlumat çap olunur və fəaliyyətlərinə tənqidi münasibət bildirilirdi.

Siz sualda artıq ulu öndər Heydər Əliyevin qəzetiniz haqqında fikrini səsləndirdiniz. Deyilənə əlavə olaraq qeyd edim ki, əslində qəzetiniz xalqımızın milli düşüncəsinin güclənməsində aparıcı rol oynayırdı. Tam məsuliyyətlə deyirəm ki, Qarabağ problemi yaranarkən xalqımızın vahid bir mövqedən çıxış edərək torpaqlarımızın müdafiəsinə qalxması, ilk növbədə, 70-80-ci illərdə Heydər Əliyevin başçılığı ilə Azərbaycanda milli-özünüdərk yolunda görülən genişmiqyaslı fəaliyyətin nəticəsi idi. 1988-ci ildə məhz “Kommunist” qəzetində Topxana meşəsinin qırılması ilə bağlı dərc edilmiş məqalələr respublikamızın ərazi bütövlüyü uğrunda açıq mübarizə müstəvisinə keçməsində bir qığılcım oldu. Bunu unutmaq olmaz. Yeri gəlmişkən bir qənaətimi söyləməyi də vacib sayıram. “Kommunist” qəzetinin varisi kimi fəaliyyət göstərən “Xalq qəzeti” Azərbaycanın 105 illik tarixinin salnaməsidir. Bu salnamə Azərbaycan tarixinin araşdırıcıları, alimləri üçün çox qiymətli bir mənbədir. Bunları əsla yaddan çıxarmaq olmaz.

**– Həsən müəllim, o dövrün jurnalistikası ilə indiki medianın fərqli cəhətlərini nədə görürsünüz? Ümumiyyətlə, medianın bugünkü durumu haqqında nə deyə bilərsiniz?**

– Bilirsiniz ki, hər mətbu orqanın yaradıcılığı, fəaliyyət məhsulu, ənənəsi ilk əvvəl öz dövrünün məhsuludur. Bu səbəbdən də əlbəttə fərq çoxdur. Yəni həyatda olan fərq məbuatda da öz əksini tapır. İndi Azərbaycanda jurnalistika ixtisası verən ali məktəblər çoxdur. Mən bu fakültələrin tədris proqramlarından xəbərsizəm və fikir söyləyə bilmərəm. Amma onu bilirəm ki, klassik jurnalistikamızın ənənələri, klassik jurnalistikamızın tanınmış simalarının əsərləri lazımınca tədris prosesinə cəlb olunmurlar. Məsələn, Sovet dövründə əsərlərinə qadağa qoyulmuş Əlimərdan bəy Topçubaşovun öz dövrünün tanınmış jurnalisti kimi rus dilində yazdığı 100-dən çox məqaləsini toplamışam və bu, hörmətli Prezidentimiz İlham Əliyevin sərəncamına əsasən kitab şəklində nəşr olunub. Lakin bu toplunun əlavə dərs vəsaiti olaraq təsdiqlənməsinə və həmin məqalələrin Azərbaycan dilinə tərcümə edilib nəşrinə təşəbbüs göstərən yoxdur.

**– “Kommunist” qəzetinin varisi olaraq artıq 105 yaşını qeyd etməyə hazırlaşan “Xalq qəzeti” haqqında nə demək istərdiniz?**

– Qəzetiniz haqqında bir çox fikirlərimi suallarınıza cavab verərkən söylədim. Deyilənlərə əlavə olaraq kollektivinizə uğurlar arzu edirəm. Redaksiyanızda qonaq olanda gördüm ki, qəzetinizdə çox sayda təcrübəli jurnalist çalışır. Yeni nəsil ancaq o zaman uğurlu fəaliyyət göstərə bilər ki, sələflərinin təcrübəsinə, yaradıcılıq üslubuna yiyələnsin və onlardan səmərəli şəkildə istifadə etsin. Qəzetin 2-ci əsr tarixinin ilk yubileyini – 105 yaşını təbrik edirəm və redaksiyaya uğurlar arzulayıram!

*Müsahibəni qələmə aldı:*
*İlqar RÜSTƏMOV*
*XQ*








# "Yaşat" şəhid balalarını sevindirir



**Bugünlərdə "YAŞAT" Fondunun təşkilatçılığı, "Nar" mobil rabitə şirkətinin hamiliyi ilə Naxçıvanda yay düşərgəsi açılıb.**

Layihə Azərbaycanın milli aviadaşıyıcısı "Azərbaycan Hava Yolları"nın, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin, Türkiyə Respublikasının Gənclik və İdman Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının tərəfdaşlığı ilə gerçəkləşdirilib. Açılış mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov iştirak ediblər.

Çıxışlarda bildirilib ki, "YAŞAT" Fondu Azərbaycan ilə Türkiyə arasında bütün sahələr üzrə əməkdaşlığın, dostluğun və qardaşlığın bariz nümunəsi kimi belə layihələrin davamlı həyata keçirilməsini nəzərdə tutur. İndiki layihə Azərbaycan–Türkiyə sahə əməkdaşlığının sistemləşdirilməsi və dərinləşdirilməsinə dair fəaliyyət istiqamətləri və iki ölkə arasında əməkdaşlığa dair qəbul edilmiş fəaliyyət planına əsasən icra olunur.

Düşərgədə 15-17 yaşlarında 50 türkiyəli və azərbaycanlı şəhid övladı 4 gün Naxçıvan Muxtar Respublikasında bir araya gəlib. Proqram müddətində iştirakçılar müxtəlif ekskursiya və gəzintilərdə iştirak edəcəklər.

*Səbuhi HƏSƏNOV*
*XQ*

Naxçıvan

# Türkdilli ölkələrin mədəni yayım platforması yaradılır

**Türkdilli region və dövlətləri birləşdirən yayım platformasının qurulması ilə bağlı ölkəmizdə iş planı hazırlanır. Prosesin sürətləndirilməsi məqsədilə mütəxəssislər araşdırmalara cəlb olunub. Bu barədə XQ-ya məlumat verən Mədəniyyət Nazirliyinin Media və Kommunikasiya şöbəsinin müdiri Aynur Kərimli bildirdi:**



– Qeyd edilən platformasının yaradılması ilə bağlı Mədəniyyət Nazirliyində danışıqlar aparılıb. Müzakirələrdə "BBC-Maestro" layihəsinin strateji və




biznes üzrə məsləhətçisi Nina Larıçeva və "ATA-Association of Turkic Animation" təşkilatının sədri Oktay Yusibov iştirak ediblər. Burada aylıq və ya illik abunə modelinə əsaslanan platformanın öz daxilində yerli və beynəlxalq məzmunları (dublyaj) əhatə etməsi məsələsinə toxunulub. Platformada tamaşaçılara yüksək keyfiyyətli, mədəni rezonans doğuran proqramların təqdim olunması və danışıqların mövzusu olub.

Yerli kino sənayesinin inkişafı dublyaj infrastrukturunun dəstəklənməsini, yeni iş yerlərinin açılmasını və müasir rəqəmsal məkanda Azərbaycan dilinin dəstəklənməsi üçün prioritet olan bu seqmentdə biznesin stimullaşdırılmasını nəzərdə tutur. Bu məqsədlər üçün "Yaradıcı Azərbaycan" proqramı çərçivəsində xüsusi tədbirlərin həyata keçirilməsi planlaşdırılır.

Nazirlik rəsmisi əlavə etdi ki, belə bir ehtiyac Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"yə və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planının müvafiq bəndində də əksini tapıb. Həmin müddəanın icrası üzrə mədəniyyət və yaradıcı sənayelər (MYS) sahəsində bazar iştirakçılarının fəaliyyətinin dəstəklənməsi, o cümlədən istehsalat bazasının təkmilləşdirilməsi və sahəvi klasterləşmənin təşviqi prioritet məsələdir.

*Ceyhun ALIŞLI*
*XQ*

# Soydaşımız Ağrı dağının zirvəsində

**Türkiyədə bugünlərdə Azərbaycan və İran vətəndaşlarının iştirakı ilə ənənəvi "Tək zirve kiçik Ağrı dağı" yürüşü təşkil olunub. Aksiyada 3 ölkədən 76 nəfər iştirak edib.**

Babək rayonunun Cəhri qəsəbə sakini 63 yaşlı Hüseyn Cəfərov hədəf seçilən zirvəni ilk fəth edərək yürüşün qalibi olub. Yarışın baş mükafatını soydaşımıza İğdır Valiliyi İdman İdarəsinin müdiri Savaş Qaya təqdim edib.

*XQ*



# "Vətən" poeması Türkiyədə işıq üzü görüb



**Azərbaycan Yazıçılar Birliyi Quba bölməsinin sədri, şair Ramiz Qusarçaylının "Vətən" poeması türk dilində də çapdan çıxıb. Poetik Zəfər dastanını qardaş xalqın dilinə İmdat Avşar çevirib, yayımçı isə Səbuhi Şahmursoydur.**

Ramiz Qusarçaylı qardaş ölkədə işıq üzü görmüş kitabın ilk nüsxəsini qarşılıqlı ehtiram və dostluq sevgisi olaraq Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçıya təqdim edib. Görüş zamanı Azərbaycan şairinin zəfər dastanını yüksək sənət nümunəsi kimi dəyərləndirən diplomat ortaq ədəbi əlaqələrimizin genişləndirilməsinə zəruriliyini vurğulayıb. Səfir tanınmış şairə türklük ruhunu tərənnüm edən söz ustasına önəmli fəaliyyətində yeni yaradıcılıq uğurları arzulayıb və özünün müəllifi olduğu "Yoxuşun uşaqları" kitabını ona hədiyyə edib.




Ramiz Qusarçaylı səmimi qəbula görə səfirə təşəkkürünü bildirib. O. ədəbi əlaqələri dəsrəklədiyinə görə "MÜSİAD Azərbaycan" İş Adamları Cəmiyyəti İdarə Heyətinin sədri Rəşad Cabirliyə razılığını bildirib.

Qeyd edək ki, Azərbaycanın qəhrəmanlıq tarixindən, onun ən yüksək zirvəsi olan 44 günlük Vətən müharibəsindən bəhs edən "Vətən"poeması ölkəmizdə böyük maraqla qarşılandığı kimi, Türk dünyasında da geniş əks-səda doğurub, yüksək dəyərləndirilib. Xaqlımızın yurd sevgisini və Qarabağ savaşında qələbədən doğan misilsiz təntənəni poetik coşqu ilə salnamələşdirən bu əsər İstanbulda keçirilən Beynəlxalq Ədəbiyyat Festivalında Türkiyə Cümhuriyyətinin "Ziya Paşa Büyük Ödülü"nə, Beynəlxalq Türk Müəllifləri Birliyinin, TÜRKSOY, İLESAM və digər qurumların dəstəyi ilə Bakıda keçirilən II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında "Nizami" medalına, Mərkəzi Asiya Yazıçılar və Tarixçilər İttifaqının və "Əmir Teymur" Beynəlxalq Xeyriyyə Fondunun "Turan Birliyi" medalına, Azərbaycan Yazıçılar Birliyinin təsis etdiyi "Əhməd Cavad" və s. mükafatlara layiq görülüb.

*Əli NƏCƏFXANLI*
*XQ*

# Musiqili Teatr yeni mövsümə Üzeyir Hacıbəylinin əsərləri ilə başlayacaq

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı ənənəyə uyğun olaraq, 115-ci mövsümündə də teatrsevərlərin görüşünə maraqlı səhnə əsərləri ilə gələcək. Sənət ocağı mövsümün açılışına 18 Sentyabr – Üzeyir Musiqi Günündə dahi bəstəkarın "O olmasın, bu olsun" tamaşası ilə başlayacaq. Bu barədə XQ-ya məlumat verən teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev dedi:**

– Teatrın yaradıcı heyəti qarşıdakı mövsümü daha maraqlı və yaddaqalan etmək üçün hazırlıqlara başlayıb. Mövsümə başladıqdan sonra 4 gün ardıcıl davam edəcək ənənəvi "Üzeyir Hacıbəyli həftəsi" çərçivəsində dahi bəstəkarın "Leyli və Məcnun" (quruluşçu rejissor və libretto müəllifi Samir Qulamov), "Ər və arvad" (quruluşçu rejissor Yusif Əkbərov), "Arşın mal alan" (quruluşçu rejissor Elvin Mirzəyev, bərpaçı rejissor Əhəd Hacıyev) tamaşaları da nümayiş olunacaq.

Bundan başqa, sentyabrın 22-də quruluşçu rejissoru Cavid İmamverdiyev olan "Nəğmənə inan", 28-də rejissor Yusif Əkbərovun quruluş verdiyi "Qızıl toy", 29-da isə Cavid İmamverdiyevin hazırladığı "Bəxtiyar" tamaşaları teatrsevərlərə təqdim ediləcək.

Teatrda yeni əsərlərin səhnə hazırlıqları barədə danışan sənət ocağının rəhbəri bildirdi:



– Hazırda rejissorlardan Elməddin Dadaşovun quruluşunda "Bir qalanın sirri", İlham Namiq Kamalın quruluş verdiyi "Əliqulu evlənir", Ər Toğrulun hazırladığı "Palata" və Zaur Əliyevin tərtibatında "Killerdən teleqram" tamaşalarının məşqləri gedir, premyeralara hazırlıq işləri görülür. Bununla yanaşı, yaradıcı heyət il boyu istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda gerçəkləşdiriləcək layihələrdə də çıxış edəcək.

*C.BALABƏY*
*XQ*

Epidemioloji durum

# Ermənistanda da Qərbi Nil qızdırması yayılıb

**Meymunçiçəyi təhlükəsinin səngimədiyi günlərdə daha bir virusun yayılması barədə xəbərlər həyəcan doğurub. "Azadlıq radiosu" bugünlərdə Ermənistanda Qərbi Nil qızdırmasına 58 yoluxmanın qeydə alınması barədə məlumat yayıb.**

Bildirilir ki, Ermənistan Səhiyyə Nazirliyinin Xəstəliklərə Nəzarət və Qarşısının Alınması üzrə Milli Mərkəzin direktoru Stepan Atoyan mətbuat konfransında ilkin yoluxma barədə açıqlama verib. O qeyd edib ki, Qərbi Nil virusuna yoluxan 60 yaşlı sakin xəstəxanaya yerləşdirilsə də, həkimlər onun həyatını xilas edə bilməyiblər. Yeni virusa yoluxanlar tibb müəssisələrinə yerləşdiriliblər. Onlardan 4-nün vəziyyəti ağır, digərləri orta ağır qiymətləndirilir. 58 xəstədən ən gənci 25, yaşlısının isə 65 yaşı var.

S.Atoyan açıqlamasında qeyd edib ki, bütün yoluxmalar Araqatsotn bölgəsində aşkar edilib. Virusun törədicisi isə 5 növ ağcaqanaddır: "Virusa yoluxmanın ilk nümunəsini avqustun 7-də aldıq və 10-da əmin olduq ki, bu xəstəliklə üz-üzəyik. Xəstəlik gənc adamlarda hiss olunmadan keçir, onlar virusa yoluxduqlarını hiss etmirlər. Yalnız qrip əlamətləri və dəridə səpgilər müşahidə edilir. Amma risk qrupuna daxil olan yaşlıların, yanaşı xəstəliklərdən əziyyət çəkənlərin 1 faizində ağırlaşma baş verir".

Mütəxəssislər Ermənistanla qonşu ölkələrdə QNV infeksiyasının qeydə alınmadığını söyləyirlər. Yeni virus hələlik Rusiyada, İsraildə, ABŞ-da, Şərqi Avropa ölkələrində müşahidə edilib. Bu qızdırmaya qarşı xüsusi peyvənd və dərman yoxdur. 80 faiz hallarda xəstəlik simptomsuz keçir. Müalicəyə vaxtında başlamayanda xəstəlik ağırlaşır və əksər hallarda virus sinir sisteminə təsir göstərir. Xəstəxanaya yerləşdirilən vətəndaşlarda intoksikasiya əlamətləri müşahidə olunur.



Yayılan xəbərlərdə ölüm halının Rusiyada da qeydə alındığı bildirilir. Suçava şəhərində yeni virusa yoluxmuş 3 nəfər yaşlı sakin xəstəxanaya çatdırılıb. 81 yaşlı xəstə sağalıb, 83 yaşlı qadın dünyasını dəyişib. 88 yaşlı xəstə isə ağır vəziyyətdədir.

Bundan əvvəl isə Tatarıstanda 15 yoluxma qeydə alınıb. Yeni virusa ən çox Mərkəzi və Volqa bölgəsində rast gəlinib.

İnfeksionist Anastasiya Ağayevanın bildirdiyinə görə, virusa yoluxan yaşlıların, təxminən, 20 faizində hərarət, baş ağrısı, ürəkbulanma, bəzən gövdədə səpkilər və limfa düyünlərinin şişməsi müşahidə olunur. Başağrısı, hərarət, titrətmə, boyun əzələlərinin sərtliyi, məkan çaşqınlığı, qıcolma, zəiflik komaya da səbəb ola bilər. Xəstəliyin ağırlaşması ensefalit, meningit və poliomielit kimi təhlükəli vəziyyətlərə səbəb ola bilər.

**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov XQ-ya bildirdi:**

– Qərbi Nil qızdırması ağcaqanad və gənə dişləmələri ilə ötürülən kəskin yoluxucu viral xəstəlikdir. Həşəratlar xəstə quşların və gəmiricilərin qanını sormaqla Qərbi Nil virusuna yoluxurlar. İnsanlar virusa həşərat dişləmələrindən əlavə, xəstə heyvanların özündən də yoluxa bilərlər. İndiyədək Azərbaycanda belə bir virus askarlanmayıb. Ölkə səhiyyəsi miqrasiya nəticəsində baş verə biləcək hər hansı təhlükəyə qarşı hazırdır.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Demokratlar Harrisi dəstəklədilər




**ABŞ-də bu il noyabrın 5-də keçiriləcək prezident seçkiləri dünyanın diqqət mərkəzindədir. Budəfəki kampaniya üçün səciyyəvi cəhət budur ki, prezidentliyə namizədlər və onların tərəfdarları debat və müzakirələrdə bir-birinə qarşı kəskin mövqe sərgiləyirlər. Bu dəfə ritorika çox sərtdir.**

Planetdə yeni siyasi, iqtisadi və hərbi nizam formalaşır. ABŞ bu taleyüklü prosesin önündə getməkdə israrlıdır. Bu ölkənin özündə isə əsasən iki qüvvə – imperiya maraqlarını təmsil edən 45-ci prezident Donald Trampın komandası ilə qlobalçılar, hazırkı vitse-prezident Kamala Harrisin tərəfdarları arasında gedir. Hər iki tərəf ortaya güclü siyasi iradə qoyub.

Bu danılmaz həqiqətdir ki, ABŞ-dəki yuxarıda qeyd etdiyimiz hazırkı siyasi konfiqurasiyanın nəticələri regional və qlobal siyasətə ciddi təsir göstərəcək. Buna görə də Yer kürəsinin, demək olar ki, hər bir guşəsində, xüsusilə də iki ən qaynar nöqtədə – Ukrayna və İsraildə seçkiləri xüsusilə diqqətlə izləyirlər. Heç kəsə sirr deyil ki, Ukraynanın hazırkı iqtidarı demokratların, İsrail iqtidarı isə Trampın qələbəsini arzulayır.

Şübhəsiz, seçkilərin taleyini 340 milyonluq Amerika vətəndaşları həll edəcək. Onların hiss və düşüncələrinə təsir etmək üçün ABŞ-də hazırkı seçkiqabağı kampaniya dönəmində hər iki rəqib siyasi partiyanın yetkililəri əllərindən gələni etməyə çalışırlar.

Dünən Çikaqoda Demokratlar Partiyasının 3 günlük qurultayı öz işini başa çatdırıb. Partiyanın ali məclisində demokratların siyasi elitasının əsas simaları bir-bir çıxış edərək vitse-prezident Kamala Harrisin dövlətin ali postuna, Minnesota ştatının qubernatoru Tim Valsın vitse-prezidentliyə namizədliklərini dəstəkləyiblər.

Qurultayın ilk iş günü Prezident Co Bayden yaddaqalan və təsirli nitq ilə çıxış edib. ABŞ mətbuatı yazır ki, 52 illik siyasi fəaliyyətdən sonra partiyanın zirvəsinə qalxmış 81 yaşlı Bayden qurultay zalında qəhrəman kimi qarşılanıb. Ötən ay siyasi yarışdan çəkildiyini elan etmiş Baydeni qurultay iştirakçıları dörd dəqiqə ərzində "Təşəkkür edirik, Co!" deyə salamlayıb. "Amerika, mən səni sevirəm," deyə Co cavab verib.

Aydın və enerjili danışan demokrat lider natiq kürsüsündə öz prezidentliyini müdafiə etmiş, vitse-prezidentə dəstək ifadə vermiş və Trampı tənqid etmişdir. Baydenin bu çıxışı iyun ayında Trampla debatdakı zəif, çaşqın danışığı ilə təzad təşkil edib. 2020-ci ildəki leytomotivi yenidən səsləndirən Bayden "Amerikanın ruhu uğrunda döyüş" getdiyini vurğulayıb, Harris və Valzı bu döyüşdə qalib çıxmağa ən şanslı liderlər kimi təsvir edib.

Bayden bildirib ki, 2020-ci ildə Harrisi özünə vitse-prezident seçmək karyerasının "ən yaxşı qərarı" olub. "O, uşaqlarımızın nümunə kimi baxacağı bir prezident olacaq. O, dünya liderlərinin indiki kimi hörmət bəsləyəcəyi bir prezident olacaq", - deyə Co Bayden Kamala Harrisin Amerikanın gələcəyinə "öz möhürü"nü vuracağını bəyan edib.

Baydenin nitqindən öncə qurultayda çıxış edən digər tanınmış siyasətçilər, o cümlədən sabiq prezidentliyə namizəd Hillari Klinton demokrat prezidenti tərifləyib və ona sərgilədiyi liderliyə görə minnətdarlığını ifadə ediblər.

Qurultayda çıxış edən demokrat natiqlərin bir çoxu respublikaçıların abort hüquqları üzrə mövqeyini tənqid ediblər. Onlar hazırkı respublikaçı prezidentliyə namizəd Trampın məhkəmə problemlərinə diqqət çəkmiş və onun mənəvi dəyərlərini sual altına almışlar. Bir çoxları Trampın siyasətinin yalnız varlılara, Harrisin siyasətinin isə işçi sinfə xidmət göstərəcəyini vurğulayıblar.

Xatırladaq ki, Tramp öz seçkiqabağı təbliğatını əsasən Ağ evin hazırkı rəhbərinin daxili və xarici siyasətinin kəskin tənqidi üzərində qurmuşdu. Baydenin seçkilərdən geri çəkilərək K.Harrisin namizədliyini irəli sürməsi namizəd milyarderin komandasında çaşqınlıq yaradıb. Əgər əvvəllər rəy sorğularında Tramp irəlidə idisə, o, artıq Harrisə uduzmağa başlayıb.

Dünən Çikaqoda Demokratlar Partiyasının qurultayı Kamala Harrisin çıxışı ilə başa çatıb. O, dəfələrlə sürəkli alqışlarla qarşılanan nitqində amerikalıların ərzaq xərclərini azaltmaq və inflyasiyanı nəzarətdə saxlamaq üçün çalışacağını vəd edib. Kamala Harris Amerikanın bütün dünyaya əmin-amanlıq və sülh bəxş edəcəyini bildirib.

*Məsaim ABDULLAYEV*
*XQ*

Həyat fəlsəfəsi

# Gələcəkdə yaşayanlar

**Bizim gələcəkdən gözlədiklərimiz bəlkə də keçmişdə qalanlardır. Biz bu dəfə onların başqa formada yenidən qarşımıza çıxmasını istəyirik. Bəzən həyatımızın dünənində qalmış adamı gələcəkdə axtarırıq. Bu, bəlkə də keçmişdən qopa bilməməkdir. İnsanın hər anı keçmişə dönür və bu, ömürdən getmiş bir an deməkdir. Anlar, dəqiqələr, saatlar, günlər, aylar, illər keçmişə döndükcə insan itirdiklərinin fərqinə varır. O keçib getmiş zamanın içində gözəl günlər var, qayğısız həyat var, sevdiyin insanlar var, sağlam can var, şəvə kimi gur, qara saçlar var... Bütün bunlar hamısı keçmiş zamanın içində var, indiki zamanda yoxdu. Gələcək isə qeyri-müəyyəndir...**



Bir də var keçmişə dönməyən gələcək. Sən hər zaman o gələcəyin intizarındasan, bir ömür boyu gözləyirsən. Onun gələcəyinə inanırsan. Xəyallarında həmin gələcək zamanda yaşayırsan, gələcək zamanı xəfifcə təqlid edirsən. İnsan öz arzularını, gələcəklə bağlı xəyallarını heç vaxt zaman qanununa tabe etmək istəmir. Amma arada Hötenin, ömrü boyu yaşadığı həyatla arzuladığı dünya arasında vurnuxmuş bu alman klassikinin məsləhətinə də qulaq asmaq lazımdır: "Hərdən xəyala da aldanmaq olar, bir şərtlə - çox uzun sürməyə ancaq".

Gün gəlir, xəyallar da yıpranır, onların istifadə müddəti bitir. Xəyal divarı bitəndə yıxılmamaq üçün hardansa tutmaq lazım gəlir, əks halda uçurum ağzını açıb bitməz iştahasıyla səni udacaq. Reallıq hissini tamamilə itirmiş insanlar xəyal dünyasının qurbanlarına çevrilirlər. Qurbana çevrilməmək üçün Hötenin bu müdrik fikrini gərək tez-tez özümüz üçün təkrarlayaq.

Platona görə, insan bədəni üç hissədən ibarətdir – baş, döş qəfəsi, qarın. Bunların hər birinə ruhun bir qabiliyyəti uyğun gəlir. Zəka başa, iradə döş qəfəsinə, iştaha isə qarına aiddir. Xəyal isə nizamlayıcı funksiya daşıyır. Platonun təsəvvür etdiyi dünyada hər şey ideal bucaq altındadır. O, insanlara xəyal dünyasını, mövcud olmayan, amma insanın şüurunda yaratdığı dünyanı daha məqbul və daha doğru hesab etməyi tövsiyə edirdi. İdeal dünya anlayışını xəyal etdiyi üçün utopistlərin ulu babası Platona hər zaman təşəkkür düşür. Ən azından ona görə ki, bu böyük filosofun "ideal dünya"sı əsrlərdən bəri ədəbiyyatın əbədi mövzusuna çevrilib. Yarızarafat, yarıgerçək ədəbiyyat müəyyən mənada həm də Platonun çörəyini yeyir.

Eynşteyn yazırdı ki, məntiq bizi A nöqtəsindən B nöqtəsinə çatdıra bilər. Xəyallar isə bizi məntiqin belə çata bilmədiyi nöqtələrə apara bilər. Məntiqin çata bilmədiyi ərazilər hər zaman ədəbiyyatın xam torpaqları olub. Ədəbiyyat o əraziləri xəyal gücünə fəth edib. Bəşər düşüncəsinin ən yaşarı ədəbi abidələrindən olan "Don Kixot" Servantesin xəyalının, təxəyyülünün məhsuludur. Sonralar fəlsəfədə "don kixotluq" anlayışı yarandı, Don Kixot insan təbiətinin tipik göstəricisi kimi saysız-hesabsız araşdırmalara yol açdı. Don Kixot artıq zamanüstü bir hadisə idi və xəyalın məhsulu olduğu qədər də gerçəkliyi, insan həqiqətini ifadə edirdi. Bu əsər insanın yer üzündəki missiyasının nədən ibarət olduğunu göstərir.

Dostoyevski bu əsər haqqında öz fikrini bu cür ifadə edib: "Əgər bəşəriyyət nə vaxtsa Tanrı qarşısında hesabat verməli olsa, özünün mövcudluğuna bəraət qazandırmaq üçün tək bircə Servantesin "Don Kixot" əsərini təqdim etməklə kifayətlənə bilər". Servantes burda həm də Platonun "ideal cəmiyyət" ideyasının iflasa uğradığını göstərir. Reallıq dünyasının isə yükü çox ağırdır, insan bu yükü çəkə biləcək gücə malik deyil. Arzular, xəyallar, ümidlər insanın yaşaması və bu yükü çəkə bilməsi üçün köməkçi vasitələrdir.

İnsan yalnız xəyalları ilə keçmişə səyahət edə bilir, aradakı zaman intervalı yox olur, xəyal sanki meteor kimi yaddaşımızda yaşayan keçmiş zamanın atmosferinə düşür və oranı işıqlandırır. Zehnin keçmişdən aldığı vizual məlumatlar xəyallar vasitəsilə müəyyən bir forma halını alır. Gələcəklə bağlı xəyallar isə hədəflərin müəyyənləşməsindən sonra insanın iradəsindən asılı olaraq gerçəkləşə bilər. Hədəfə çatmaq üçün isə insana motivasiya lazım olur.

Xəyallar heç də həmişə uğurlu gələcəyin təminatçısı olmur. Yeganə dayaq nöqtəsi xəyallar olan insanlar bu xəyalların tükəndiyini görəndə yaşamaq onlar üçün dözülməz olur və onlar intihara əl atırlar. Bu, eqoizmin faciəvi sonluqla bitən pik nöqtəsidir. Ekzistensialist filosof və yazıçı Alber Kamyu "intihar qaçışdır" deyirdi. Şüur axını formasında yazdığı "Çöküş" romanında isə intiharın heç də xilas yolu olmadığını görürük. İnsan öz mahiyyətindən qaçdıqca öz içində batır. Kamyu bunu dahiyanə şəkildə Klamansın timsalında anbaan göstərir. İntihar belə insanı öz mahiyyətindən xilas edə bilməz. Bu isə tamam başqa bir söhbətin mövzusudur. Jan Pol Sartr "Yalnız həqiqət" əsərinin girişində intiharla yaxşıca məzələnmişdi. Bir dələduzun intihar oyununun qurbanı olan iki sadəlövhü xatırlayın. Biz xəyallarla uğraşırıq, çalışaq ki, xəyalların əsiri olmayaq.



Ağıla söykənən xəyallar daha etibarlı olur. Ağıllı insan reallıqla xəyallar arasında balans yarada bilir. Reallıqla illüziyanın arasındakı neytral zonada gəzişən yazıçılar üçün bu məkan yaradıcılıq laboratoriyasıdır. Yazıçı orda sözlərdən alternativ dünya yaradır və özü də o dünyanın içində yaşayır, bir ayağı isə həmişə real dünyadadır, o, heç vaxt reallıq hissini itirmir.

Bəzən insanın zamanı xəyalların ömründən qısa olur. Amma böyük zamanın içində an qədər qısa ömür yaşamış insanlar olub. Onlar seçilmişlər idi. Mikayıl Müşfiq, Cəfər Cabbarlı, Sergey Yesenin, Artur Rembo, Əli Kərim, Orhan Vəli...

Onlar da Sözün səmasına meteor kimi düşdülər və bədii düşüncəni işıq selinə bürüdülər. Bir insan ömrünə sığmayacaq qədər çox işlər gördülər. O sözü yazdılar ki, onlar olmasaydı, o söz də doğulmayacaqdı. Bəzən təəssüflə düşünürük ki, onlar çox yaşasaydılar, daha böyük əsərlər yaza bilərdilər. Amma o böyük əsərləri artıq yazmışdılar. Mikayıl Müşfiq gənc yaşında novator şair kimi parladı, Cəfər Cabbarlı dramaturgiyada məktəb yaratdı, Əli Kərim bütöv bir mərhələyə çevrildi. Yazdıqları öz çəkisindən ağır gələn və qosqoca bir ömür yaşayan yazıçıların bir çoxu bu gün heç xatırlanmır. Amma Mikayıl Müşfiqi kim unutdu, Cəfər Cabbarlını unutmaq mümkündürmü, Əli Kərimi hansısa misrası ilə az qala, hər gün xatırlamırıqmı? Orhan Vəlinin, Yeseninin şeirləri hər zaman ruhumuza sığal çəkmirmi, bizimlə həmdərd olmurmu?

Biz bu şeirlərlə təsəlli tapırıq, ovunuruq, onların xəyalları bizim də xəyallarımızı qidalandırır.

Onlar keçmiş zamanda yaşadılar, amma bu gün biz onları gələcəyə ötürürük. Onlar bizim xəyallarımızın körpüsündən keçib gələcəyə gedirlər. Onların zamandan qorxusu yoxdu. Onların zamanı heç zaman bitməyəcək.

*Kənan HACI,*
*yazıçı-publisist*

# Paralimpiyaçılarımızın Paris hazırlığı başa çatıb



**Paralimpiyaçılarımızın bir qrupunun Fransada avqustun 12-dən başlayan hazırlığı başa çatıb.**

Paratletika, paraüzgüçülük, paragüllə atıcılığı və parakamandan oxatma üzrə milli komandamızın Paris Paralimpiya Oyunlarında mübarizə aparacaq idmançıları Ajan şəhərində təlim-məşq toplanışı keçiblər. Paragüllə atıcılığı üzrə Kamran Zeynalov, Aybəniz Babayeva, parakamandan oxatmada Cahan Musayev, paraüzgüçülük üzrə Vəli İsrafilov, Raman Salei hazırlıqda iştirak ediblər. Paratletika üzrə isə Oloxan Musayev, Səid Nəcəfzadə, Orxan Aslanov, Rüfət Rəfiyev və Lamiyə Vəliyeva toplanışa qatılıblar.

**Azərbaycan millisinin "Paris-2024"də nümayəndə heyətinin rəhbəri Rüfət Hacılı "XQ"yə açıqlamasında paralimpiyaçılarımızın əsas məqsədinin dördilliyin ən mötəbər yarışında uğurla çıxış etmək olduğunu deyib.** O, komandamızın əvvəlki Paralimpiya Oyunlarında olduğu kimi, yenə medallar uğrunda əzmkarlıqla mübarizə aparacaqlarını bildirib:

– Komandamızın heyətində Paralimpiya çempionları İlham Zəkiyev, Dürsədəf Kərimova, Raman Salei, Oloxan Musayev, Orxan Aslanov və Lamiyə Vəliyeva kimi titullu idmançılarımız var. İnanırıq ki, komandamızın üzvləri əldə etdikləri nailiyyətlərlə xalqımızı sevindirəcəklər.

Qeyd edək ki, Azərbaycan millisi Paris Paralimpiadasında 7 növ üzrə 19 idmançı ilə təmsil olunacaq. Paralimpiya Oyunlarının açılışı avqustun 28-də, bağlanışı isə sentyabrın 8-də olacaq.

*Leyla QURBANOVA*
*XQ*

# Qazilərin məşğulluğu təmin olunur

**"Naxçıvan qaziləri" İctimai Birliyinin Biznes Mərkəzində keçirdiyi toplantıda Vətənin qeyrətli övladlarının məşğulluq durumu müzakirə edilib.**

Birliyin sədr müavini Əli Əlisoy qeyd edib ki, "Naxçıvanda müharibə veteranları ilə iş" layihəsinin məqsədi qazilərin peşə bacarıqlarının inkişaf etdirilməsi, onların iş yerləri ilə təmin edilməsi, məşğulluğunun artırılmasıdır.

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Fərid Bağırzadə söyləyib ki, muxtar diyarda da Vətən üçün canından keçən oğulların ailələrinin, sağlamlığını itirən hərbçilərin ehtiyacları diqqət mərkəzindədir. İlin əvvəlindən müharibə ilə əlaqədar əlilliyi müəyyən olunmuş 12 nəfər şəxsə avtomobil təqdim edilib. 28 qazi 100-ə yaxın texniki və köməkçi reabilitasiya vasitələri ilə təmin edilib. 4 nəfərə protez və ortez xidməti göstərilib, 29 nəfərə reabilitasiya vasitələri verilib. 24 nəfər qazinin Əlillərin Bərpa Mərkəzində və digər reabilitasiya mərkəzlərində müalicəsi təşkil edilib. 22 qazi və 3 şəhid ailəsi üzvü özünüməşğulluq proqramına cəlb olunub, 20 nəfər işlə təmin edilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, təhsil ocağının 75 peşə ixtisası üzrə qaziləri təlimlərə cəlb etmək imkanı var. Yaxın vaxtlarda açılacaq yeni təhsil mərkəzindən şəhid ailələri və qazilər də istifadə edəcəklər. Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rahid Ələkbərli, gənclər və idman nazirinin müavini, Məcid Seyidov, iqtisadiyyat nazirinin müavini Tapdıq Əliyev qazilərin problemlərinə həssas münasibətin nəticələrindən söz açıblar.

*XQ*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Zığ Gəmi Təmiri və Tikintisi zavodunun balansındakı liman kranlarının təmiri xidmətlərinin satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il avqustun 28-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1263.

Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

Heydər Əliyev Beynəlxalq Aeroportu, 2 saylı terminalın 5-ci mərtəbəsi üçün ofis mebellərinin satın alınması məqsədilə həyata keçirilən və 2024-cü il avqustun 20-də elan edilmiş iştirakçıların uyğunluğunun əvvəlcədən müəyyənləşdirilməsi proseduru sənədlərinin son təqdim edilmə müddəti 29 avqust 2024-cü il saat 17.00-a qədər uzadılmışdır.

Prosedurda iştirak etmək niyyətində olan şirkətlər, nijat.jabbarli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun sənədlər toplusunu əldə edə bilərlər.

Prosedur üzrə nümayəndənin əlaqə məlumatları: mütəxəssis – Nicat Cabbarlı, mobil – (+99455) 296 76 07, email: nijat.jabbarli@azal.az

*Satınalmalar idarəsi*

BİLDİRİŞ

"Xalq qəzeti"nin 27 iyul 2024-cü il tarixli nömrəsində dərc edilmiş "AKSERMAN" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağının keçirilməsi təxirə salınır və ASC-nin növbəti illik ümumi yığıncağının keçiriləcəyi tarix barədə əlavə məlumat veriləcəkdir.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 180 (30584) 23 avqust 2024-cü il, cümə

# Cüdoçularımız Dünya zirvəsində



**Azərbaycanın Olimpiya çempionları Hidayət Heydərov (73 kq) və Zelim Kotsoyev (100 kq) cüdo üzrə bütün çəki dərəcələri üzrə dünya reytinqində ilk 2 pillədə qərarlaşıblar.**

Aktivində 10004 xal olan Hidayət Heydərov dünya reytinqinin lideri kimi mövqeyini qoruyub. Paris Olimpiadasındakı qələbə ona 2200 xal qazandırıb.

Digər Olimpiya çempionumuz Zelim Kotsoyev isə Paris Oyunlarında qazandığı 2200 xal sayəsində 2-ci yerə yüksəlib. Onun hesabında 8512 xal var. İlk 3-lüyü 8335 xalla gürcüstanlı Olimpiya çempionu Tato Qriqalaşvili (81 kq) qapayır.

# Futbolda ən uğursuz transferlər




**Futbol tarixindəki ən uğursuz transferlərin siyahısı açıqlanıb.**

Goal.com portalına görə, fransalı vinger Usman Dembelenin 2017-ci ildə Dortmund "Borussiya"sından İspaniyanın "Barselona" klubuna 135 milyon avro qarşılığında keçidi ən uğursuz transfer hesab olunub.

İlk "3-lüy"ə La Liqa ilə bağlı daha iki transfer daxil edilib. Eden Azarın İngiltərənin "Çelsi" klubundan Madrid "Real"ına (2019-cu il, 120 milyon avro) keçidi siyahıda 2-ci yerdədir. 3-cü ən uğursuz transfer isə 2018-ci ildə 135 milyon avro müqabilində İngiltərə təmsilçisi "Liverpul"dan "Barselona" klubuna gedən Filip Koutinyonun keçidi hesab edilib.

# U–17 güləş millimiz Əmmanda 3-cü oldu

**İordaniyanın Əmman şəhərində keçirilən U-17 Dünya çempionatında yunan-Roma güləşi üzrə millimiz uğurla çıxış edib.**



Böyük məşqçi Taleh İsrafilov, məşqçilər Nazim Əhmədov və Rasim Ağayevin rəhbərliyi altında Dünya çempionatında iştirak edən milli komandamız 2-si qızıl, 1-i bürünc olmaqla 3 medal əldə edib. Milli üzvlərindən Turan Daşdəmirov (51 kq) və Ayxan Cavadov (60 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar. Əmrah Əmrahov (48 kq) isə bürünc medal qazanıb.

Yekunda 105 xal toplayan Azərbaycan yığması komanda hesabında dünya 3-cüsü olub. İran (140) birinci, Özbəkistan (113) isə ikinci yeri tutublar.

*L.AZAD*
*XQ*

Maraq dünyamız

# Elə ki, yıxıldın, torpaqdan yapış!



**Mən bu fotonu sosial şəbəkələrdə görəndə əvvəlcə "Yatan ölməz, yetən ölər" el məsəlini xatırlamışdım. Sonra fikrimi dəyişərək həmin ağacın taleyini cəmiyyətə müncər eləməyə çalışdım: "Cəmiyyətdə də belədir. Bəzi adamlar hər cür himayə, qayğı görsə də, ayaq üstdə quruyub gedirlər. Bəziləri isə böyrü üstə yıxılandan sonra belə əvvəlki şövqlə yaşayır, daha da güclü olmağı bacarırlar".**

Belə düşünməyə haqqım var. Çünki cəmiyyətdə buna oxşar çoxsaylı faktlara şahidlik etmişəm. Yeri gəlmişkən, "ayaq üstə ölən" deyəndə dünyasını dəyişənləri nəzərdə tutmuram, cəmiyyət üçün tamamilə lazımsız bir əşyaya çevrilmişləri deyirəm.

Qərəz. Bu gün isə həmin foto ilə bağlı fikirlərimi bir az da korrektə etdim. Sadəcə küləyin, qasırğanın, ildırımın, ya nəyinsə aşırdığı həmin ağacın yerdən tam üzülməyən köklərini alqışladım. Əhsən sağlam kökə, afərin böyrü üstdə yıxılmış nəhəng ağacı kiçik bir orman kimi bərpa edən köklərə. Cəmiyyətdə də belədir. Təmiz, sağlam köklər kimlərinsə yıxmaq istədiyi adamı daha da gücləndirir, ona daha möhtəşəm görkəm, görünüş, qamət bəxş edir.

Ağaclarımız daim yaşıl, bulaqlarımız həmişə bol sulu, zəmilərimiz hər il bol məhsullu olsun! Amin!

*İttifaq MİRZƏBƏYLİ*

# Süni intellekt insana tabedir

**ChatGPT kimi müasir süni intellekt şəbəkələri bəşəriyyət üçün təhlükəsizdir. Bu qənaətə Böyük Britaniyanın Bat Universiteti və Almaniyanın Darmştadt Texniki Universitetinin alimləri gəliblər. Tədqiqatçılar "chatbotlar"ın özbaşına öyrənmə bacarığını araşdırıblar.**

Araşdırmalar göstərib ki, süni intellekt şəbəkələri idarə olunan, proqnozlaşdırıla bilən və təhlükəsizdir. Alimlər müəyyən ediblər ki, süni intellektlər təlimat-



lara yalnız səthi şəkildə əməl edə bilir. Onlar özbaşına yeni bacarıqlar öyrənə bilmirlər. Süni intellekt yeni bacarıqlarını inkişaf etdirmək üçün aydın təlimat tələb edir.

Mütəxəssislərin fikrincə, süni intellekt şəbəkələrindən istifadə zamanı hələ də risklər var. Məsələn, belə texnologiyalar başqa məqsədlər üçün istifadə oluna bilər. Bu isə müxtəlif saxtakarlıqların yaranmasına gətirib çıxaracaq. Lakin "chatbotlar"ın mürəkkəb düşünmə üsullarını öyrənmə ehtimalı azdır.

*S.ELAY*
*XQ*

# Venerada da su?!

**Venera Günəş sistemində yüksək temperaturu olan planetlərdəndir. Onun səthində temperatur 480 dərəcə Selsiyə çatır. Bu da qurğuşunu əritməyə kifayət edir.**

Planetin səthindəki təzyiq isə Yer okeanlarının 1 kilometr dərinliyindəki ölçüyə bərabərdir. Eyni zamanda, Veneranın atmosferi, əsasən, zəhərli sulfat turşusundan ibarətdir.

Planetin havası da qurudur. Maraqlıdır ki, orada az da olsa, su tapılıb. Alimlər bildiriblər ki, suyun tərkibində deyterium (hidrogenin izotopu) daha çoxdur. Adi suda 2 hidrogen atomu, yarı ağır suda isə 1 hidrogen və 1 deyterium atomu var. Hidrogen nüvəsində elektron bir proton, deyterium nüvəsində isə proton və neytron ətrafında fırlanır.

Əvvəllər Venera və Yerdəki 2 müxtəlif tərkibli su arasındakı nisbətin eyni olacağı düşünülürdü. Lakin elm adamları Venera atmosferində Yerdəki sudan 120 dəfə çox deyterium tapıblar. Bununla da müəyyən ediblər ki, suyun 2 versiyası arasındakı nisbət yüksəklik artdıqca dəyişir.

*PÜNHAN*
*XQ*



# Aranda günəşli, dağda yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 23-də Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək.**

Səhər bəzi yerlərdə zəif duman olacaq. Şimal-qərb küləyi əsəcək, gündüz mülayim şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 21-26°, gündüz 34-39° isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunundan 758 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 40-50 faiz olacaq.



Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulba) 27-28° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 28-29° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq rayonlarda zəif duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 35-38°, bəzi yerlərdə 40°, dağlarda gecə 13-18°, gündüz 22-27° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

# "Kosmik almaz"la örtülmüş qəsəbə



**Almaniyanın Nördlingen qəsəbəsində evlərin dam örtükləri "almazlar"la bəzədilib. Şəhərdəki binaların dam örtüklərinə on tonlarla "almaz" sərf edilib.**



Ehtimal olunur ki, təqribən, 15 milyon il bundan əvvəl Alp dağına düşən meteorit yerə enərək dərinliyi 26 kilometr olan "Nördlingen ries" kraterini əmələ gətirib. Meteorit dağılan zaman kiçik parlaq parçaları ətrafa yayılıb. Bu gün qəsəbədə damlarda istifadə olunan "almazlar" məhz həmin meteoritin zərrəcikləridir.

Nördlingen qəsəbəsində gün işığında evlər par-par parıldayır. Bir çox turistlərin də diqqətini çəkən bu "almazlar" qəsəbənin cəlbedici və parlaq görünməsində önəmli rol oynasalar da, onlar oxşarları kimi hər hansı maddi dəyərlərə sahib deyil.

Xatırladaq ki, Nördlingen Almaniyanın Bavariya əyalətində salınmış yaşayış məntəqəsidir. Bura həm də hündür qüllələri olan kilsələri və daş döşənmiş səliqəli yolları ilə məşhurdur.

Mərkəzi hissədə qotik üslubunda tikilmiş Müqəddəs Georgi Kilsəsi yerləşir. Onun Daniel adlanan qülləsindən qəsəbəyə heyrətamiz mənzərə açılır.

*Fidan SALMANOVA*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3685
SİFARİŞ 1868
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00